www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 sentyabr 2014-cü il Şənbə № 229 (5938) Qiymәti 40 qәpik

Xəbər

## İcra hakimiyyətinin şöbə müdiri həbs olundu

yazısı səh.10-da

Gündəm

### Bu gün Azərbaycan və Türkiyə görünməmiş hərbi təlimlərə başlayır



Bir həftə davam edəcək təlimlərdə 250-dən artıq zirehli texnika, artilleriya qoşunlarının 150-dən çox qurğusu, 20-dək təyyarə, 15 helikopterdən istifadə olunacaq; Ermənistan təlaşda...

yazısı səh.9-da

*Amerikalı professor:*

### "Rusiya Qarabağa qoşun yeritmək istəyir"

yazısı səh.8-də

### Məhkəmə Seymur Həzini həbsdə saxladı

yazısı səh.10-da

### Qubad İbadoğlu Müsavat başqanlığına namizəd oldu

yazısı səh.6-da

### Avstriyalı nazir Məmmədyarova siyasi məhbusların siyahısını verib

yazısı səh.5-də

### Avropa İttifaqından Rusiyaya qarşı şok sanksiyalar

yazısı səh.8-də

### Toy və yas dəbdəbəsinə qoyulan qadağalara müxalifət nə deyir...

yazısı səh.13-də

### İncəsənət Universitetinin iki prorektoru işdən çıxarıldı

yazısı səh.10-da

### Əməkdaşımız iki ruhi xəstənin qaçdığı dispanserdən yazır

yazısı səh.15-də

### Fərahim İlqaroğlunun işində şok gəlişmə

yazısı səh.3-də

### Səid Nuri videosunun hansı oteldə çəkildiyini açıqladı

yazısı səh.4-də

## Nazir oğlu baş redaktora qarşı 3 maddə ilə iddia irəli sürüb

# ANAR MƏMMƏDOVUN GİZLİ ANDI - DEŞİFRƏ!

"Yeni Müsavat"ın baş redaktoru: "Bunlar rəsmən məni susdurmaq istəyirlər; Məmmədovlar müxbirimizi döydürüb, indi də məni həbslə hədələyirlər ..."; ekspertlər etiraz edir: "Ölkə prezidenti 2 ay öncə Strasburqda demişdi..."



yazısı səh.3-də

## İsmayıllıdan Suriyaya vəhhabi ailələri kim göndərib? - təfsilat

"Yeni Müsavat" döyüşlərdə öldürüldüyü bildirilən güləşçilərimiz haqda iddiaları araşdırıb; rayondan İŞİD-ə qoşulanların sayı artır

yazısı səh.12-də



Robert Cekuta

### ABŞ-da Azərbaycana göndərilən səfirlə bağlı dinləmələr başlayır

yazısı səh.5-də



### ADP sədrindən Əli Kərimliyə sərt ittihamlar

yazısı səh.11-də



### İsa Qəmbər Müsavatın parçalanacağı xəbərlərindən danışdı

yazısı səh.6-da

# "Bu, biabırçılıqdır"

## Müsavat başqanı Anar Məmmədovun Rauf Arifoğlunu məhkəməyə verməsinə münasibət bildirdi

**"Azərbaycanın ən zəngin adamlarından biri Azərbaycanın ən önəmli qəzetlərindən birinin rəhbərini susdurmaq, bu alınmasa, həbs etdirmək istəyir. Bu, biabırçılıqdır". Müsavat Partiyasının başqanı İsa Qəmbər nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun "Yeni Müsavat" qəzetinin təsisçisi və baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verməsi xəbərini "Yeni Müsavat"a şərh edərkən belə deyib.**

Müsavat başqanı bildirib ki, cəmiyyət bu özbaşınalığa biganə qalmamalıdır: "Rejimin yaratdığı dərəbəylik, özbaşınalıq, hüquqi nihilizm şəraitində oliqarxlar, nazirlər, komitə sədrləri və onların qohum-əqrəbası müxalifəti, jurnalistləri, fərqli düşünən insanları, rəqib hesab etdikləri hər bir şəxsi hüquq-mühafizə sistemi vasitəsilə cəzalandırmağa çalışırlar. Bu təhlükəli tendensiya dayandırılmalıdır. Əgər hakimiyyət bütün bunların hansı təhlükələri yaratdığını dərk etmirsə, cəmiyyət bunu hakimiyyətə anlatmalıdır. Müsavat Partiyası olaraq biz bu təhlükəli tendensiyanın qarşısını almaq üçün fəaliyyətimizi davam etdirmək və gücləndirmək əzmindəyik".

❑ AYGÜN

# KXCP, ALP, AMİP...




**Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) qərargahında Demokratik Qüvvələrin Birliyinin (DQB) növbəti toplantısı keçirilib. Bu barədə APA-ya AMİP sədri Yusif Bağırzadə məlumat verib. Y. Bağırzadə bildirib ki, iclasda KXCP, ALP, AMİP, Azad Demokratlar Partiyasının iştirakı ilə "Avropa seçimi" siyasi ittifaqı yaradılması qərara alınıb və bu istiqamətdə ilkin müzakirələr aparılıb: "Burada məqsəd Azərbaycanın Avropaya inteqrasiyasını daha da intensivləşdirmək və Azərbaycan mühitində Avropanın demokratik dəyərlərini bərqərar etməkdir".**

Y. Bağırzadə qeyd edib ki, ittifaqın Azərbaycanda keçiriləcək bələdiyyə və parlament seçkilərində də iştirakı nəzərdə tutulur.

# Moskva məhkəməsindən Qarabağ separatçılarının sponsoruna yeni ittiham

**Moskva məhkəməsində Rusiyada yaşayan və bir neçə ay öncə həbs edilən erməni iş adamı Levon Ayrapetyana qarşı yeni ittiham irəli sürülüb. Musavat.com-un erməni informasiya qaynağına istinadən verdiyi xəbərə görə, müstəntiq Veselyev ona qarşı dələduzluq ittihamı irəli sürüb. Erməni biznesmen isə yeni ittihamı da rədd edir.**

İyulun 24-də saxlanılan Ayrapetyanı Rusiya İstintaq Komitəsi bu günədək mənimsəmə və pulların yuyulması maddələri ilə üzrə təqsirli bilirdi.

Ayrapetyan Dağlıq Qarabağda separatçı hərəkatın əsas maliyyə sponsorlarından sayılır. Bu səbəbdən erməni tərəfi həbsin Azərbaycanın siyasi sifarişi ola biləcəyini iddia edir.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



# Ümid Anar Məmmədovla "Yeni Müsavat" arasında vasitəçilik təklif edir

**"Biz tərəflər arasında vasitəçilik edərək problemin məhkəməsiz çözümünə dəstək verməyə hazırıq". Bu sözləri "Ümid Partiyasının sədri İqbal Ağazadə nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verməsi faktına münasibət bildirərkən deyib.**

İqbal Ağazadə bildirib ki, məmurların və onların yaxınlarının media ilə münasibətlərini hər fürsətdə məhkəmə müstəvisinə çıxarması yaxşı praktika deyil: "Məhkəməyə müraciət etmək hər bir vətəndaşın haqqıdır və hər kəs bu hüquqdan istifadə edə bilər. Konkret bu məsələyə gəldikdə biz çalışacağıq ki, problem müsbət həll edilsin. Hətta ehtiyac olarsa, tərəflər arasında vasitəçilik etməyə də hazırıq. Mənim fikrimcə, məmurlar, onlara yaxın şəxslər tənqidə dözümlü olmalıdır, media ilə məmurlar arasında münasibətlər məhkəmə müstəvisinə çıxarılmamalıdır. Mən məmurlara tövsiyə edirəm ki, onlar media ilə bağlı məsələlər xüsusi həssaslıq göstərsinlər. "Ümid" Partiyası olaraq Azərbaycanın ictimai-siyasi fikrinin formalaşmasında xüsusi çəkisi olan, Azərbaycanı informasiya ilə təmin edən ən böyük media quruluşunun müdafiəsi üçün əlimizdən gələni edəcəyik".






# Azərbaycanlılar Avstriyanın futbol klubunu aldılar

**Azərbaycanlı investorlar Avstriyada klub alıb. Musavat.com xəbər verir ki, bu barədə "Neue Zürcher Zeitung" saytı yazıb. Söhbət "Ottakring" klubundan gedir.**

"Ottakring" klubu Vyananın qərbində yaradılıb. Klub ölkənin futbol liqasının 6-cı divizionunda oynayır. Bu yaxınlarda isə Azərbaycandan olan səhmdarlar bu kluba müştəri düşüblər. Onlar klubu satın almaq istəyiblər. Amma bir şərtlə: komandanın adı "Qarabağ" olmalıdır.

Hazırda klubun adının "Qarabağ" olması ilə bağlı işlər aparılır. Məqsəd Vyana "Qarabağ"ının Avstriya çempionatında yer tutmasıdır.

Azərbaycanlı səhmdarların "Ottakring" klubunu satın almaq üçün nə qədər ödədiyi açıqlanmır.

Komandanın rəsmi saytında da artıq ad dəyişikliyi edilib və ""Qarabağ" futbol klubu" yazılıb.

Klubu alan investorların adları açıqlanmır.



# Rüşvət alan bələdiyyə sədrinə cinayət işi açıldı

**Cəlilabad bələdiyyəsinin sədrinin qanunsuz hərəkətləri barədə rayon sakininin müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. Baş Prokurorluğun mətbuat xidmətindən "Qafqazinfo"ya daxil olan xəbərə görə, araşdırmalar zamanı bələdiyyənin sədri Kamal Məmmədovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Cəlilabad şəhərində rayon sakininə məxsus torpaq sahəsinə bitişik və faktiki olaraq istifadəsində olan 0,04 hektar ölçüdə torpaq sahəsinin sonuncuya satılması üçün 20.000 manat pul tələb etməsində və faktiki olaraq 5.000 manat məbləğində pulu rüşvət kimi almasında şübhələr üçün əsaslar olduğundan K.Məmmədov barədə Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.**

# Avropa Birliyi Ukraynaya islahatlar üçün 8 milyard ayırdı

**Avropa Birliyi Ukraynaya islahatlar həyata keçirmək üçün 8 milyard avro ayıracaq. Musavat.com-un liga.net-ə istinadla verdiyi xəbərə görə, bu barədə Avropa Parlamentinin prezidenti Martin Şults "YES" beynəlxalq forumda bəyan edib.**

Onun sözlərinə görə, belə bir maliyyə yardımı şərtsiz də deyil. "Ümid edirəm ki, Ukrayna islahatlar həyata keçirəcək", - deyə qurum prezidenti vurğulayıb.

Xatırladaq ki, bu il martın əvvəlində Avropa Komissiyası Ukraynaya kömək qismində ümumi məbləği 11 milyard avro olan makro-maliyyə paketini qəbul edib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# Prezident Ağ Şəhər Bulvarında görülən işlərlə tanış olub

**Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Ağ Şəhər Bulvarında olublar.**

APA-nın məlumatına görə, dövlət başçısı və xanımı Ağ Şəhər Bulvarında görülən işlərlə tanış olublar.

İşlərin gedişi ilə maraqlanan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

# İlqar Nəsibovla onu döyən şəxs üzləşdirildi

## Fərid Hüseynov hüquq müdafiəçisi tərəfindən döyüldüyünü iddia etdi

## Məlahət Nəsibova: "İlqarın ifadəsi nəyə görəsə hökumətyönlü sayta ötürüldü"

**Avqustun 21-də Naxçıvanda bir qrup şəxs tərəfindən döyülmüş hüquq müdafiəçisi İlqar Nəsibov və onun həyat yoldaşı Məlahət Nəsibova sentyabrın 10-da saat 15:00-da yenidən Naxçıvan Şəhər Polis İdarəsinə dindirməyə çağırılıblar. "Yeni Müsavat"a açıqlamasında M.Nəsibova bildirdi ki, o, bu iş üzrə şahid qismində dindirilib.**

Bundan başqa, İ.Nəsibov onu döyən Fərid Hüseynovla da üzləşdirilib. M.Nəsibovanın dediyinə görə, F.Hüseynov İ.Nəsibovun önü döydüyünü deyib: "Üzləşmə zamanı hərəsi öz versiyasını dedi. İlqar hadisəni olduğu kimi danışdı. Müstəntiq dedi ki, 10-15 günə iş tamamlanıb məhkəməyə göndəriləcək".

**Müsahibimizin sözlərinə görə, idarəyə getmədən öncə İ.Nəsibovun daha öncə verdiyi izahat veteninfo.az adlı hakimiyyətyönlü saytda dərc edilib:** "Mən soruşdum ki, bu izahat necə yayıla bilər? Müstəntiq dedi ki, "mən də bilmirəm. Onların özləri bu ifadəni yaymağa meyllidir". Amma mənə də maraqlıdır ki, onlar bu ifadəni niyə yaysınlar".

Xatırladaq ki, sayt Nəsibovun istintaqa ifadəsinin surətini dərc etsə də, bunun onlara necə çatdığını açıqlamayıb.

**İ.Nəsibovun səhhətinə gəlincə, həyat yoldaşı dedi ki, vəziyyəti nisbətən normallaşmağa gedir:** "Amma sümük sınıqları, körpücük sümüyü ona əziyyət verir. Çəki itirib. Buna baxmayaraq, gəzə bilir".

İ.qar Nəsibovun ağır xəsarət almasına, çoxlu sınıqlarının olmasına baxmayaraq, polis sentyabrın 4-də cinayət işinə başlayıb. İ.Nəsibov zərərçəkən kimi tanınıb. Lakin cinayət işi "bilərəkdən yüngül bədən xəsarətinin yetirilməsi" maddəsi ilə açılıb.

❑ Sevinc TELMANQIZI

# Nazir oğlu baş redaktora qarşı 3 maddə ilə iddia irəli sürüb

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verib. İddia ərizəsində A. Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edir. Şikayət ərizəsinə 8 sentyabr 2014-cü il tarixində, saat 11.45-də Xətai Rayon Məhkəməsinin hazırlıq iclasında baxılacağı nəzərdə tutulsa da, baş yazara bu barədə sənədlər sentyabrın 11-də, məhkəmədən 4 gün sonra çatdırılıb.**



# “Rauf Arifoğlunu həbs etdirəcəm” - Anar Məmmədovun andı

## “Yeni Müsavat”ın baş redaktoru: “Bunlar rəsmən məni susdurmaq istəyirlər; Məmmədovlar müxbirimizi döydürüb, indi də məni həbslə hədələyirlər ...”; ekspertlər etiraz edir; "Ölkə prezidenti 2 ay öncə Strasburqda demişdi..."

İttiham ərizəsində göstərilib ki, iddiaya səbəb “Yeni Müsavat” qəzetinin 08 iyul 2014-cü il tarixli sayında “Anar Məmmədov ”qış yuxusu"ndan ayıldı", “Ayı işi qayıtdı” başlığı ilə Ziya Məmmədovun oğlu “Yeni Müsavat” və “Azadlıq” qəzetlərinə kəsilən cərimələrin icraya yönəldilməsi üçün məhkəməyə üz tutdu, Rauf Arifoğlu: “Günah bizdən getdi...” yarımbaşlığı ilə dərc edilən məqalədir.

Qarşı tərəfin iddiasına görə, R.Arifoğlu sözügedən məqalədə A.Məmmədovun şərəf və ləyaqətini alçaldan, onun işgüzar nüfuzuna xələl gətirən həqiqətə uyğun olmayan açıqlamalar verib.

Bu iddianı isə konstitusiyanın ayrı-ayrı maddələri ilə əsaslandırmağa çalışıblar.

**A. Məmmədovun bu addımını şərh edən Rauf Arifoğlu bildirdi ki, məhkəmə 8 sentyabra təyin edilsə də, onların bundan xəbəri olmayıb:** “Xəbərimiz olmadığı üçün iştirak etməmişik. Bizə məhkəmə çağırışı 11 sentyabrda daxil olub. Bu gün öyrəndik ki, qarşı tərəf də 8 sentyabrda məhkəmə prosesinə gəlməyib. İddia ərizəsi ilə tanış oldum... Bunlar rəsmən məni susdurmaq istəyirlər. Məmmədovlar müxbirimizi döydürüb, indi də məni həbslə hədələyirlər. Anar Məmmədov şəxsən Cinayət Məcəlləsinin 3 maddəsi ilə mənə cinayət işi açmağı məhkəmədən tələb edir. Bunların gözünü kin, nifrət, qəzəb elə örtüb ki, nə etdiklərinin fərqində belə deyillər. Azərbaycan dövlətini yenə də bütün dünyanın "Diffamasiya demoqoqiyası"na hədəf edəcəklər. Ölkə rəsmiləri israrla dünyaya bəyan edirlər ki, diffamasiyaya görə həbslər yoxdur, neçə ildir ki, heç məhkəmə prosesi də keçirilmir; bunlar isə tam əksini edir və Azərbaycan iqtidarını arqumentsizləşdirirlər. Lakin düşünürəm ki, bəlkə də belə yaxşıdır. Bu proses ölkəmizdə “Diffamasiya haqqında” qanunun qəbul olunmadığını yenidən gündəmə gətirəcək və problemli yerimizi nümayiş etdirəcək".

> **“Anar Məmmədov gənc iş adamıdır. Gedir, Amerikada yabançılarla münasibət qurur, lobbi təşkilatları ilə təmas yaradır və sair. Amma ölkə daxilində hər zaman media ilə gərginlik içindədir, işini və münasibətlərini qura bilmir”**

**Rauf Arifoğlu deyir ki, bu cür proseslər onun üçün adi haldır:** “Mənimlə bir çox nazirlər illərlə mübarizə aparıblar, məhkəməyə veriblər, pislik ediblər, zərər vurmağa çalışıblar. Onlardan sonuncusu da Səfər Əbiyev idi... Kimsənin mənimlə düşmənçilikdən xeyir tapdığını görmədim. Bu qəzet 25 il tarixi olan bir Azərbaycan əfsanəsidir; həm də sehrli bir energetikaya malikdir. Özünü oraya pis niyyətlə toxuyan zərər çəkir; yaxşı niyyətlə yaxınlaşan fayda tapır”.

**Baş redaktor bildirir ki, onlar gələn həftədən etibarən müdafiə taktikası quracaqlar:** “Anar Məmmədov gənc iş adamıdır. Gedir, Amerikada yabançılarla münasibət qurur, lobbi təşkilatları ilə təmas yaradır və sair. Amma ölkə daxilində hər zaman media ilə gərginlik içindədir, işini və münasibətlərini qura bilmir. Amerikalılara gələndə, başqa üzlərini göstərirlər, bizimlə isə hər zaman zor dilində danışmağa çalışırlar, əzmək, bitirmək niyyəti güdürlər. Necə münasibət göstərəcəklər, o cür də münasibət görəcəklər”.

**Baş redaktor deyir ki, ona Anar Məmmədovun bir andı barədə məlumat ötürüblər:** “Mənə dedilər ki, bu gənc oliqarx yaxın çevrəsində qəzəblə and içib ki, ”Yeni Müsavat"ın baş redaktorunu həbs etdirəcək... Heç olmasa, elə edəcək ki, R. Arifoğlunu polis məcburi qaydada məhkəməyə gətirsin. Yəni mənə pislik edəcəyinə and içib. Onun əmisi oğlu Aynar da Fərahim İlqaroğlu ilə bağlı belə bir and içmişdi. Bunun nəticəsində Aynara bağlı olan idmançılar müxbirimizə sui-qəsd etdilər... Mən bunlardan hər cür pislik gözləyirəm. Məmmədovların gəncləri zorbalıqları sevirlər. Lakin bizim arxamızda Ziya Məmmədovdan da böyük qüvvə var. O da bizim Allahımızdı. Mənim təvəkkülüm ona, bu da mənə yetər...“

**Hüquqşünasımız Vaqif Hüseyn deyir ki, iddia ərizəsində göstərilən maddələr Rauf Arifoğlu üçün həbs təhlükəsi yaradır. Onun sözlərinə görə, bu hadisə Azərbaycanda bir sıra məmurların mətbuat nümayəndələrini məhkəmə qaydasında məsuliyyətə cəlb etmək, söz azadlığını boğdurmaq şakərindən əl çəkmədiyinin göstəricisidir:** “Təəssüf ki, hələ də Cinayət Məcəlləsinin məlum maddələri (147-ci, və 148-ci) jurnalistlərə qarşı təqib məqsədilə ”Domokl qılıncı" kimi sallandırılmaqda davam etdirilir. Rauf Arifoğluna qarşı xüsusi ittiham qaydasında verilmiş şikayət heç bir əsası olmadığına görə məhkəmə hazırlıq iclasında geri qaytarılmalı və icraata xitam verilməlidir. Belə ki, Rauf Arifoğlu barəsində xüsusi ittiham qaydasında şikayətdə göstərilən əməldə heç bir cinayətin əlaməti yoxdur və bununla bağlı jurnalistə qarşı hər hansı bir məsuliyyətdən söhbət gedə bilməz. Onu da vurğulamağı vacib hesab edirəm ki, xüsusi ittiham qaydasında şikayət verilməsi ilə bağlı cinayət işləri Avropa İnsan Haqları Məhkəməsinin xüsusi diqqətindədir. Təsadüfi deyildir ki, bu tip işlərlə bağlı Avropa İnsan Haqları Məhkəməsi bir qayda olaraq insan hüquqlarının ən böyük sahələrindən biri olan ifadə və söz azadlığının tərəfini tutur və onun qorunmasının vacibliyini vurğulayır".

**V.Hüseyn xatırlatdı ki, Avropa Məhkəməsi mətbuatın demokratik cəmiyyətdə oynadığı “gözətçi” rolunun xüsusi əhəmiyyət kəsb edən amil olduğunu vurğulayıb:** “Bu səbəbdən yerli məhkəmələr bu məsələdə olduqca ehtiyatlı mövqe sərgiləyir, qanunun aliliyinin qorunması məsələsinə xüsusi diqqətlə yanaşırlar. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumu tərəfindən xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında 21 fevral 2014-cü il tarixli 3 saylı qərar qəbul edilmişdir. Plenum qərarında Azərbaycan Respublikasında məhkum edilən jurnalistlərin olmadığı xüsusi vurğulanır. Bundan başqa, qərarda göstərilir ki, ”məhkəmələr nəzərə almalıdırlar ki, Avropa Məhkəməsinin presedent hüququnda demokratik sistemin davamlılığı baxımından söz azadlığının əhəmiyyətinə xüsusi diqqət yetirilir.... Avropa Məhkəməsi həmçinin bildirmişdir ki, mətbuatın demokratik cəmiyyətdə oynadığı “gözətçi” rolu xüsusi əhəmiyyət kəsb edən amildir... Onun vəzifəsi öz məsuliyyət və öhdəliklərinə uyğun qaydada siyasi məsələlər və ümumi maraq kəsb edən digər məsələlər barədə məlumat və fikirləri yaymaqdan ibarətdir..." Rauf Arifoğluna qarşı xüsusi ittiham qaydasında verilən şikayət ərizəsi ilə bağlı keçiriləcək məhkəmə iclasında hüquqi mülahizələrimiz və mövqeyimiz məhkəməyə təqdim ediləcəkdir".

**Media hüquqçusu Xalid Ağaliyev qeyd edib ki, belə məhkəmə tələblərinə ilk növbədə ölkədəki durumun işığında nəzər salmaq lazımdır.** “Hazırda azad media, vətəndaş cəmiyyəti qurumları üçün ürəkaçan mühit mövcud deyil. Həbsdə xeyli sayda jurnalist və vətəndaş cəmiyyəti fəalı var. Fəaliyyət imkanları demək olar ki, tükəndirilib. Belə durum təbii ki, tənqiddən xoşlanmayanların haqq-hesab çəkmələri üçün çox əlverişlidir". Demokratik inkişaf, Qərbə inteqrasiya yolu seçdiyini elan edən, nüfuzlu Avropa qurumuna sədrlik edən bir ölkənin öndə gələn 3-5 jurnalistindən birini yazısına görə həbs etdirmək niyyəti istənilən halda başadüşülən deyil. Jurnalist əgər doğrudan da aşağılayıcı faktlar yayıbsa, düşüncələrini dilə gətiribsə, zərər çəkdiyini iddia edən şəxs ilk növbədə məntiqi olaraq həmin faktların doğru olmadığını, düşüncələrin faktual əsaslara söykənmədiyini topluma isbat etməyə çalışmalıdır. Birbaşa olaraq, jurnalistin həbs edilməsi çabaları varsa, deməli, əsas niyyət ümumilikdə tənqidi məzmunlu mediaya zərər yetirməkdir. Belə vasitələr demokratik ənənələrə uyuşmur". **X.Ağaliyev belə ağır məhkəmə tələblərinin Azərbaycan hökumətinin bəyanatlarına da tamamilə zidd olduğunu vurğulayıb:** “Ölkə prezidenti 2 ay öncə Strasburqda Azərbaycanda heç bir jurnalistin peşə fəaliyyətinə görə həbs edilmədiyini, edilməyəcəyini, Azərbaycanın Avropa Məhkəməsi təcrübəsinə sadiq olduğunu ifadə etmişdi. Qısa zaman keçməmiş hökumətin önəmli nazirlərindən birinin övladının jurnalisti yazısına görə həbs etdirməyə qalxması da anlaşılan deyil. Bu vasitədən 30-40 il əvvəl Avropada istifadə ediblər. İndi artıq hamı jurnalistə yazısına görə cinayət cəzası verilməsindən imtina edib". **Xalid Ağaliyev həmçinin deyib ki, hazırkı hüquqi durumda məhkəmələr belə şikayətləri icraata belə götürməməlidirlər:** “Məhkəmələr Ölkə Konstitutisiyasına söykənərək, Avropa Məhkəməsi təcrübəsinə istinad etməlidirlər. Avropa Məhkəməsi Eynulla Fətullayev işində, Yaşar Ağazadə işində açıq şəkildə deyib ki, jurnalistə yazısına, düşüncəsinə görə cinayət cəzası vermək olmaz. Məhkəmələrimiz də xüsusi ittiham qaydasında şikayətlərə bu adını çəkdiyimiz qərarların işığında baxmalıdırlar”.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov isə hazırda paytaxtda olmadığı üçün proseslərdən xəbərsiz olduğunu dedi. Amma MŞ sədri dedi ki, Bakıya qayıdan kimi bu məsələni qurumun İdarə Heyətində müzakirə edəcəklər:** “Rauf Arifoğlu Mətbuat Şurası İdarə Heyətinin üzvüdür. Ona görə də həm qarşı tərəfin, həm də ”Yeni Müsavat" rəhbərliyinin Mətbuat Şurasının müstəvisində bu problemi müzakirə etməsinə çalışacağıq".

**Nəzərə alaq ki, R.Arifoğlu Mətbuat Şurasının üzvüdür. Bu xüsusla onlar həm də MŞ üzvünü məhkəməyə vermiş olur.**

❑ **Sevinc TELMANQIZI**

> **“Rauf Arifoğlu Mətbuat Şurası İdarə Heyətinin üzvüdür. Ona görə də həm qarşı tərəfin, həm də “Yeni Müsavat” rəhbərliyinin Mətbuat Şurasının müstəvisində bu problemi müzakirə etməsinə çalışacağıq”**

# Fərahim İlqaroğlunun işində şok gəlişmə

## Jurnalistin məhkəmə tarixi bəlli oldu, amma onu döyənlərin və sifarişçinin ifadəsi cinayət işindən “buxarlanıb”

**Jurnalist Fərahim İlqaroğlunun döyülməsi faktı ilə bağlı cinayət işində yenilik var. Bu barədə musavat.com-a açıqlamasında F.İlqaroğlu məlumat verdi. Onun sözlərinə görə, artıq məhkəmənin başlanacağı vaxt məlum olub.**



Fərahim İlqaroğlu

F.İlqaroğlu bildirib ki, məhkəmə sentyabrın 16-da saat 12-də başlanacaq. Artıq jurnalistə baş prokurorun müavini Rüstəm Usubovun imzası ilə məktub göndərilib. Həmin məktubda qeyd edilib ki, cinayət işi üzrə materiallar Nizami Rayon Məhkəməsinə göndərilib.

F.İlqaroğlu həmçinin dedi ki, daha öncə vəkili Vaqif Hüseynlə birgə Daxili İşlər Nazirliyində olanda ona cinayət işi ilə bağlı müvafiq sənədlər təqdim edilib. Həmin sənədlər arasında Tural Bayramov və Aynar Məmmədovun ifadəsini tələb etdiklərini yada salan jurnalist sonradan prosesin başqa istiqamətdə cərəyan etdiyini dedi: “Bizim tələbimizə qarşılıq olaraq, müstəntiq həmin sənədlərin surətini çıxarıb bizə verməli idi. Amma indi baxıram ki, sənədlər yalnız mənim və Feyruz Termişin ifadələrindən ibarətdir. Digər iki nəfərin ifadəsi cinayət işində yer almayıb. Müstəntiq Mikayıl Qüdrətova zəng vursam da, zənglərimə cavab vermir”.

**M.Qüdrətov isə “Yeni Müsavat”ın “itkin düşən ifadələrin” taleyi ilə bağlı sualına cavab verməkdən imtina etdi. Dedi ki, bu barədə danışmaq səlahiyyəti olmadığı üçün suallara cavab verə bilməyəcək:** “Sizə bir cavabım ola bilər ki, mətbuat xidmətinə müraciət edin”.

Xatırladaq ki, aprelin 25-də F. İlqaroğlu naməlum şəxslər tərəfindən evinin qarşısında döyülüb. Hadisədən sonra cinayət işi başlanılıb və Feyruz Termişi təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunub. Onun barəsində həbs-qətimkan tədbiri seçilib. F. Termişi Cinayət Məcəlləsinin 221.2.2-ci (xuliqanlıq) maddəsinə əsasən ittiham edilir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014



# Talıbov modeli

Samir SARI

**Talıbov modeli deyilərkən bəzilərinin ağlına başqa şeylər gələ bilər. Məsələn, bir sıra gənclər elə bilər ki, söhbət Naxçıvan sultanının oğlunun İngiltərədə qol-boyun şəkil çəkdirdiyi model qızlardan gedir. Amma elə deyil, söhbət heç şahzadənin son model saat, avtomobil, telefonlarından da getmir.**

Siyavuş Novruzovun dediyi "Talıbov modeli" başqa şeydir, dövlət işlərinə aiddir.

Novruzovun dediyinə görə, Vasif Talıbov əziz adamının yasında deyib ki, süfrəyə ancaq bu ərzaqlar verilməlidir və bu müddətdə olmalıdır: "Üç-dörd il əvvəl Vasif müəllim bunu özündən tətbiq edib. Bundan sonra demək olar ki, Naxçıvanın bütün kəndlərində bu könüllü olaraq tətbiq edildi. Bu, həm də Vasif Talıbov modeli idi. Biz indi bunu təbliğ edərək bütün Azərbaycanda tətbiq etmək istəyirik".

Bəli, Talıbov modeli yas yerində verilən xurmanın, qəndin sayını, nəlbəkiyə yayılmış halvanın qalınlığını, hüzrə gələnlərin yas mağarında ləngimə müddətlərini nəzərdə tutur. Standart belədir ki, hüzrə gələn adam yas mağarına girib çənəyə verməməlidir, mollaların qızıl xırdalamasına qulaq asmamalıdır, 10-15 dəqiqə oturmalıdır, sonra mollaya tərəf baxmalıdır ki, bir "fatihə" ver, duraq. Bundan sonra qonaqlar saatlarına baxa-baxa (15 dəqiqəlik vaxt müddətini keçirməmək üçün) təcili mağardan və yas düşən evin həyətindən çıxmalıdırlar. Uzatma halları istisna hallarda və üzrlü səbəbdən (əgər hüzrə gələn yoldaşıyla gəlibsə və o da qadınlar məclisində ləngiyirsə) ola bilər.

Düzdür, deyilənə görə, Naxçıvan mahalının özündə ilk vaxtlarda "Talıbov modeli"nin tətbiqi müqavimətlə üzləşirmiş, amma bir xeyli adam təcridxanalara basılandan, arvad-uşağının qabağında döyüləndən, cərimələnəndən sonra xalq görüb ki, Talıbov modelində kəramət var.

Talıbov modeli təkcə hüzr məclisində standartlar tətbiq etməklə məhdudlaşmır, özünü yaxşı aparmayan adamların ağaca bağlanıb döyülməsini, təndirlərin yasaqlanmasını, yuyulmuş paltarların binalardan asılmasının qadağasını, müəllimlərin, tibb işçilərinin biyara aparılmasını *(xüsusilə də çuğundur toplanışına, ot yolmağa-filana)* nəzərdə tutur.

Əgər ölkənin bu hissəsində də Talıbov modeli tətbiq ediləcəksə, bu, ölkədə seyrəklik yaranacağı, paytaxtda tıxac probleminin həll olunacağı anlamına gəlir. Məlum olduğu kimi, Naxçıvanda Talıbov modelinin uğurla tətbiqindən sonra muxtar respublikanın heç bir şəhərində tıxac problemi yoxdur, küçələr bomboşdur, çünki mahal əhalisi başda Bakı olmaqla ölkənin bir çox şəhərlərinə, eləcə də Türkiyə, İran, Rusiya və Ukrayna kimi yaxın ölkələrə dağılıblar.

Biz Talıbov modelini tətbiq etməklə xarici ölkələrdə güclü diaspora yaratmaq strategiyasını paralel şəkildə həyata keçirə bilərik. Adamlar başlarını götürüb qaçar, bir neçə ildən sonra hiddətləri azalınca, hirsləri soyuyunca, dövlətçilik ətrafında sıx birləşər, elə mühacirətdəcə vətənin xeyrinə işləyərlər (necə ki, vaxtilə ölkədən "həyatımıza təhlükə var" deyə mühacirət edənlərin bir çoxu hazırda səfirliklərimizlə əməkdaşlıq edirlər).

Əslində, çoxdandır ölkənin bəri yanında da Talıbov modeli altdan-altdan, xəfif-xəfif, yavaş-yavaş tətbiq edilir. Məsələn, müxalifət qüvvələrini tamamilə sıradan çıxarmaq layihəsi əvvəlcə məhz Naxçıvanda həyata keçirilib. Bu, bir parlaq Talıbov modeli idi. Müxalif qəzetlərin yasaqlanması da sırf Talıbov modelinə uyğun gerçəkləşdi. Hüquq müdafiəçilərinin döyülməsi, tutulması halları da ilk dəfə Naxçıvanda sınaqdan keçirildi. Budur, artıq o işlər Bakıda, Gəncədə, Lənkəranda da görülür.

Belə çıxır ki, biz bir-iki ildən sonra başımıza nə iş gələcəyini bilmək üçün gözümüzü Naxçıvana dikməliyik və Talıbov modellərini izləməliyik.

Söylü bacı demişkən, yenə o gözəgörünməzə şükür edək. Dünyada daha pis modellər var. Məsələn, Pol Pot modeli, Pinoçet modeli, İdi Amin modeli, Bokassa modeli...

Sonuncu modelin nə olduğunu bilməyənlər varsa, deyim ki, cənab Bokassa insanları kəsdirib soyuducuya yığır, sonra da yavaş-yavaş yeyirmiş.

Xüləs, söz tamam yetdi. Bir şeyi də deyim ki, bəzi hərəkətlərin adına əvvəllər "zülm" deyirdilər, indi "model" deyirlər.

# İŞİD Azərbaycan üçün də təhlükə yaradır

## Ərəstun Oruclu: "Bu təhlükəyə çox ciddi şəkildə hazır olmaq lazımdır"

**Hazırda Yaxın Şərqdə bir nömrəli təhlükəyə çevrilmiş İŞİD-in digər bölgələrə də nüfuz etməsi təhlükəsi var. Artıq qruplaşmanın müxtəlif vaxtlarda Səudiyyə Ərəbistanı, Küveyt, Misir, İordaniya, Türkiyə kimi region dövlətlərini təhdid edən bəyanatları yayılıb. Bir sıra mütəxəssislərə görə, ABŞ-ın İŞİD-ə qarşı yaratdığı beynəlxalq koalisiyanın əsas hədəfi bu qruplaşmanın digər regionlara yayılmasının qarşısını almaqdır.**

İŞİD-in hədəfləri sırasında Şimali Qafqaz da var. Ötən həftə İŞİD üzvləri internetdə yaydıqları videoçarxda Çeçenistan və Qafqazda müharibəyə başlayacaqları ilə hədələyiblər.

Yeri gəlmişkən, qəzetimizin ötən sayında ekspert **Orxan Qafarlı** İŞİD-ə qarşı koalisiyaya qoşulmanın Azərbaycan üçün riskli olduğunu bildirib. **Sitat:** "Yetərli sayda İŞİD-çi Azərbaycandan İraq və Suriyaya gedib. Azərbaycanda olan İŞİD-çilər hərəkətə keçərək terror təhlükəsi yarada bilərlər. Türkiyə ilə Azərbaycanın təhlükəsizlik baxımından bənzər problemlərinin olduğunu görürük".

Bir sıra ekspertlərə görə, İŞİD İraq və Suriyadakı basqıların altında yerdəyişmə edə bilər. Qruplaşmanın yerləşə biləcəyi məkanlardan biri də Şimali Qafqaz hesab olunur. Bu isə Azərbaycan üçün birbaşa təhlükə deməkdir. Çünki hazırda İŞİD-in tərkibində çoxlu sayda azərbaycanlı var. Bundan başqa, Azərbaycanın özündə də çoxlu sayda İŞİD tərəfdarı və bu qruplaşmanı dəstəkləyən insanlar var. Hətta o həddə ki, bunu internet və sosial şəbəkələrdən açıq şəkildə müşahidə etmək olur. Yeri gəlmişkən, bir qədər əvvəl Suriyada müxaliflər cəbhəsində döyüşən Vüqar adlı bir nəfər *(ad şərti ola bilər - K.)* Timeturk saytına müsahibəsində Suriyada 250 nəfərə yaxın Azərbaycan vətəndaşının savaşdığını və onların 60 faizə yaxınının İŞİD-in tərkibində olduğunu bildirmişdi. Onun bildirdiyinə görə, yerdə qalan 40 faiz isə müxtəlif islamçı qruplaşmalarda döyüşür.

**Politoloq Ərəstun Oruclu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, İŞİD-in Azərbaycana gəlməsi üçün bütün zəruri şərtlər mövcuddur:** "Birincisi, bu gün İŞİD-in tərkibində həm Azərbaycandan, həm də Şimali Qafqazdan olan döyüşçülər var. Yalnız Azərbaycandan olan İŞİD üzvlərinin sayı haqda elə bir rəqəmlər deyilir ki, adam hətta dilinə belə gətirmək istəmir.

Digər tərəfdən, nəzərə almaq lazımdır ki, bu adamlar özbaşına ora getməyiblər, onları kimsə burdan seçib, bir-bir hazırlayıb aparıb. Bölgədə, yəni həm Şimali Qafqazda, həm də Azərbaycanda şəbəkə mövcuddur. Həmin şəbəkənin də marağının bir gün İŞİD-in bu bölgəyə, Azərbaycana gəlməsini tələb etməyəcəyini heç kim deyə bilməz. Yəni o zərurət yaranarsa, hesab etsələr ki, İraq, Suriya uğursuz seçilmiş ölkələrdir, buna görə də orda məğlubiyyətə məhkumdurlar. Çünki o bölgəyə diqqət daha çoxdur, beynəlxalq güclər orda daha güclü şəkildə təmsil olunublar. Bu amilləri nəzərə alan İŞİD yerləşmək üçün Azərbaycanı da seçə bilər.



Ərəstun Oruclu

Düşünürəm ki, bu məsələyə çox ciddi şəkildə hazır olmaq lazımdır. Təhlükə xeyli dərəcədə realdır. İnanmıram ki, Obamanın bombalama qərarından sonra İŞİD amerikalıların başını kəsməkdən imtina edəcək. Əminəm ki, ABŞ, Britaniya, Fransa və digər ölkələrə qarşı daha ciddi tədbirlərə əl atacaqlar. Ona görə də heç kəs arxayın oturmamalıdır ki, onlar hansısa bölgəyə gəlməyəcəklər. Mən hesab edirəm ki, təhlükə kifayət qədər ciddidir".

❑ KƏNAN

# Səid Nuri videosunun hansı hoteldə çəkildiyini açıqladı

## "Burada nə var ki? Məşğul olmalı deyildik?"

**ABŞ-da yaşayan azərbaycanlı gənc fəal Səid Nuri sentyabrın 11-də Bakıdan çıxarılıb. O, facebook səhifəsində yazıb ki, onu təyyarəyədək izləyiblər və bir daha ölkəyə qayıtmaması barədə xəbərdarlıq edilib. Bundan əvvəl isə onun intim videosu yayılıb. Məlum olub ki, bu, ötən ilin may ayında Bakıda olarkən qaldığı hoteldə gizli lentə alınıb.**



**"Yeni Müsavat"a açıqlamasında Səid Nuri deyib ki, video istintaqa çağırılması ilə bağlı izi azdırmaq üçün yayılıb. Gənc fəal video çəkilən hotelin adını açıqlayıb:** "Mətbuatda "Meridian" hotelin adı yazılır. Amma ora İçərişəhərdə yerləşən "King Palace"dir. Bu videonun mənə təsiri sıfıra bərabərdir. Yaşadığım qızla intim əlaqələrim olub. Burada nə var ki? Məşğul olmalı deyildik? Təbii bir şeydir. Evli olmamışam ki, desinlər xəyanət edib. Pulla olmayıb ki, desinlər fahişə ilə yaxalanıb. Burada utanılacaq heç nə yoxdur".

**S.Nuri deyib ki, Azərbaycan kiminsə şəxsi mülkü deyil və istədiyi vaxt ölkəyə qayıtmağa çalışacaq:** "Amma hələlik yox. Çünki şəxsi işlərim çoxdur. İmkan düşən kimi, təhlükə hiss etsəm belə, ölkəmə qayıdacam. Niyə də qayıtmamalıyam? Bu ölkə həm də mənimdir".

**S.Nuri niyə hədəf seçilməsinə də aydınlıq gətirib:** "ABŞ vətəndaşı olmağım, Azərbaycana tez-tez gəlməyim hədəf olmağıma səbəb oldu. Əgər hakimiyyət bu addımı atdısa, demək, ABŞ-la üzbəüz gəlməyi göz önünə aldılar. Sadəcə, Amerikanın sərt təpkisindən sonra başqa variantları qalmadı. Məni həbs etməyə gücləri yetmədi".

S.Nurinin adını çəkdiyi hotel barədə qısa araşdırma apardıq. Məlum oldu ki, booking.com-da bu hotel yer almır. Saytda hotel barədə bu sözlər yer alıb: "King Palace" hoteli artıq booking.com-da yer almır".

Qeyd edək ki, bundan əvvəl də bir sıra AXCP fəalları ilə bağlı onların intim görüntüləri ayrı-ayrı hotellərdə qeydə alınaraq yayımlanmışdı. Buna görə də ortaya təbii bir sual çıxır. Bütün hotellərdə videokamera quraşdırılırmı? Bu edilirsə, kim tərəfindən həyata keçirilir? Qanuni, yoxsa cinayət əməlidir?

**Hüquqşünas Müzəffər Baxış insanların şəxsi həyatının izlənilməsinin qanunsuz olduğunu dedi:** "Kameralar hansısa obyektin təhlükəsizliyi ilə bağlı quraşdırılırsa, bu normaldır. Kiminsə şəxsi həyatına müdaxilə etmək məqsədilə bu addım atılırsa, bu yolverilməzdir. Şəxsi toxunulmazlıq hüququnun pozulması ilə bağlı Cinayət Məcəlləsinin 157-ci maddəsində cinayət məsuliyyəti nəzərdə tutulur. Normal dövlətlərdə bu barədə tədbirlər görülür. Amma Azərbaycan kimi avtoritar dövlətlərdə qeyri-mümkündür. Səid Nurinin şəxsi həyatına müdaxilə etdiklərinə görə məsuliyyət daşıyan şəxslər 157-ci maddə ilə məsuliyyətə cəlb olunmalıdır".

**Hüquqşünas son belə videolardan sonra hotellərin bütün otaqlarında kameralar quraşdırılması ehtimalının olduğunu söylədi:** "Dəqiq bilməsəm də, belə çıxır ki, hotellərin bütün otaqlarında kameralar quraşdırılır. Belə hotel sahibləri barədə tədbir görülmürsə, deməli, bunu xüsusi xidmət orqanları həyata keçirir".

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz təhlükəsizlik baxımından videokameraların quraşdırılmasının normal olduğunu bildirdi:** "Kameraların sayına görə London dünyada birinci yerdədir. Orada hər yerdə kamera quraşdırıblar. Bu, normal qarşılanır. Söhbət çəkilən kameralardan necə istifadə edilməyindən gedir. Kimlər izləyə bilər? Əldə olunan materiallar kimdə toplanır? Necə istifadə olunur? Bu cür məsələlərə diqqət yönəldilməsi daha düzgün olar. Xüsusilə otaqlarda kamera yerləşdirilməsi ciddi məsələdir. Dünyada izlənən şəxs barədə qanun var. Hətta informasiyaların məhv edilməsi qaydaları da var. Çünki izlənən şəxsin təqsirsiz olduğu məlum ola bilər. O zaman əldə olunan məlumat ləğv edilməlidir. Düşünürəm ki, izlənən şəxs barəsində məhkəmə qərarı olmalıdır. Kameraların harada qoyulması haqqında qaydalar müəyyənləşdirilməlidir. Hotellərin girəcəyində kameraların quraşdırılması normaldır. Amma otaqlarda olması, məncə, yolverilməz hallardır".



Səid Nuri

**Osman Gündüz kameraların quraşdırılmasının elə də ciddi xərc tələb etmədiyini söylədi:** "İndiki halda ciddi xərc tələb etmir. Əvvəllər çox baha idi. Amma indi bir hotel üçün uzağı 4 min manat xərc çıxa bilər. İndi internet vasitəsilə də izləmək olur. Bağlantı vasitəsilə parolla istənilən yeri izləmək olur. Bu dəqiqə inkişaf edir ki, artıq bunlar çox xərc tələb etmir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014



# ABŞ-da Azərbaycana göndərilən səfirlə bağlı dinləmələr başlayır

## Sentyabrın 17-də Senatda nəzərdə tutulan toplantıda Ermənistana göndəriləcək diplomatla bağlı da müzakirələr olacaq

**ABŞ Senatının Xarici Əlaqələr Komitəsində ölkənin Azərbaycandakı yeni səfiri postuna namizəd Robert Cekuta ilə bağlı dinləmələr keçiriləcək. "Trend"in ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin saytına istinadən verdiyi məlumata görə, dinləmələr sentyabrın 17-nə nəzərdə tutulub. Azərbaycana səfir postuna namizədlə yanaşı, dinləmələr ABŞ-ın Ermənistan, Makedoniya və Montoneqrodakı yeni səfiri postuna namizədlərlə bağlı müzakirələri də əhatə edəcək.**

Qeyd edək ki, prezident Barak Obama ABŞ-ın Azərbaycandakı yeni səfiri postuna hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin birinci müavini olan Robert Frensis Cekutanın namizədliyini irəli sürüb.

Cekuta əvvəllər ABŞ Dövlət Departamentinin Energetika və biznes məsələləri Bürosunda dövlət katibinin köməkçisinin energetika, sanksiyalar və xammal məhsulları üzrə müavini vəzifəsində çalışıb.

Onun xaricdə son təyinatları Tokioda (2007-2009-cu illər) və Berlində (2003-2007-ci illər) olub. O, bu ölkələrdə ABŞ hökumətinin iqtisadi məsələlərin bütün spektrində iştirakına nəzarət edib.

Almaniyada iqtisadi müşavir-səfir kimi Cekutanın işi terrorizmlə və beynəlxalq cinayətkarlıqla mübarizənin gücləndirilməsi olub. O, həmçinin ABŞ Dövlət Departamentinin Energetika və biznes məsələləri Bürosunda ərzaq təhlükəsizliyi məsələləri üzrə baş müşavir və ABŞ-ın Kabildəki səfirliyində Koordinasiya direktorunun iqtisadi məsələlər üzrə birinci müavini olub.

Daha əvvəl Cekuta ABŞ-ın Ticarət Nümayəndəliyi İdarəsində (1999-2000-ci illər) çalışıb. O, ABŞ DD-də müxtəlif vəzifələr tutub, energetika, ticarət və iqtisadi inkişaf məsələlərinə cavab verib, eləcə də iqtisadi siyasət və ictimai diplomatiyanın analizi üzrə direktor, bioloji texnologiyalar üzrə xüsusi vasitəçi və İraq iqtisadi hədəf qrupunun direktoru olub.



Sekuta Corctaun Universitetinin məzunu, Qlobal Menecment Məktəbinin və Milli Hərbi Kollecin magistri dərəcəsinə malikdir.

Qeyd edək ki, hazırda ABŞ-ın Azərbaycandakı səfir vəzifəsi vakantdır. Bundan önceki səfir Riçard Morninqstar səlahiyyət müddətini başa vuraraq ABŞ-a qayıdıb.

## Avstriyalı nazir Məmmədyarova siyasi məhbusların siyahısını verib

**Avstriyanın xarici işlər naziri Sebastyan Kurtz Azərbaycana səfərinin yekunlarından danışarkən AzadlıqRadiosuna bildirib ki, Azərbaycan prezidenti və xarici işlər naziri ilə görüşlərdə Azərbaycanda insan haqlarının durumunu da müzakirə edib.**

Prezidentlə görüşdə o, Azərbaycanın insan haqları ilə bağlı təcrübəsini yaxşılaşdırmasının vacibliyini vurğulayıb.

"Xarici işlər naziri ilə daha ətraflı müzakirəmiz oldu. Mən ona Azərbaycanda siyasi məhbusların siyahısını təqdim etdim. İnsan haqları ilə bağlı müzakirə çox gərgin keçdi", - Kurtz deyib.

Yeri gəlmişkən, xatırladaq ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov avstriyalı nazirlə birgə keçirdiyi mətbuat konfransında bu sür iddialara cavab olaraq demişdi: "Azərbaycanda insan hüquqlarının vəziyyəti regionda və hətta Avropanın digər ölkələri ilə müqayisədə daha yaxşıdır".

# Poroşenko "Krım yenə bizim olacaq" dedi

## Ukrayna prezidentinin 100 günü: nə dəyişdi?

**Sentyabrın 12-də Yalta Avropa Strategiyasının Kiyevdə keçirilən 11-ci forumunda çıxış edən Ukrayna prezidenti Pyotr Poroşenko Rusiyanın işğal etdiyi Krım vilayətindən danışıb.**



"Media forum" saytının məlumatına görə, Poroşenko deyib: "Deyirlər ki, biz Krımı itirmişik. Yox, Krıma soxulublar. Krım yenə bizim olacaq, amma hərbi yolla yox. Biz krımlıların rəğbətini qazanmaq üçün iqtisadi, liberal, demokratik yarışda qalib gələcəyik. Çünki rüşvətə uymayacağıq, demokratik və azad olacağıq. Ukraynanın Krımdan kənar ərazisində həyat səviyyəsi daha yaxşı olacaq. Krımlıların rəğbətini qazanmaq üçün bu, yeganə üsuldur və belə variant bizi Donbasda da qalib edəcək".

Bu ilin fevral-mart aylarında Rusiya Qərblə sıx inteqrasiya yolu seçən Ukraynanın Krım yarımadasını hərbi qüvvə ilə işğal edərək özünə birləşdirib. Daha sonra cənub-şərq vilayətlərində Rusiyanın dəstəklədiyi separatçı hərbi-siyasi qüvvələr baş qaldırıb, Donetsk və Luqansk vilayətlərini müstəqil respublikalar elan edib.

İyun ayından Ukrayna Silahlı Qüvvələri ölkənin ərazi bütövlüyünün müdafiəsi üçün qəti hücuma keçib. Minlərlə insan itkisinə başa gələn əməliyyatlarda Donetsk və Luqansk vilayətlərinin bir hissəsi azad olunub. Sentyabrın 3-də Donbas bölgəsində atəşkəs elan olunub.

"Şərq + Qərb" dəyirmi masası ətrafına toplaşan ekspertlər isə Ukrayna prezidenti Pyotr Poroşenkonun hakimiyyətə gəlişindən ötən 100 gün müddətindəki fəaliyyətini dəyərləndiriblər. Modern.az Ukrayna KİV-nə istinadən xəbər verir ki, ekspertlər Poroşenkonun bu müddətdə Avropa İttifaqına assosiativ üzvlüklə bağlı sazişin iqtisadi hissəsini imzaladığını, Ali Radaya yeni seçkilərin keçirilməsinin elan olunmasını xüsusi qeyd ediblər. Ancaq deputatlıq uğrunda yarışın əvvəlki qanunla keçirilməsini ekspertlər mənfi qərar hesab ediblər.

Poroşenkonun 100 günlük hakimiyyətinin müsbət tərəflərindən biri kimi Ukraynanın güclü xarici siyasət yürütdüyü qeyd olunub. Ekspertlərin fikrincə, prezident daima dünya liderləri ilə əlaqədədir, Kiyev Qərbin dəstəyini alır.

Daxili siyasətə gəldikdə, ekspertlərin qənaətinə görə, irəliləyiş azdır. Onlar düşünürlər ki, korrupsiyaya qarşı mübarizə və hakimiyyətin təmizlənməsi görünmür. Nə məhkəmə, nə də konstitusiya islahatları aparılmır. Poroşenkonun Rusiya ilə danışıqlarına gəldikdə, bunu həm tənqid edənlər, həm də müsbət yanaşanlar var. Məsələn, politoloq Vladimir Fesenko qeyd edib ki, Rusiya Poroşenkonu prezident kimi tanıyıb.

# Qanuni imperiya



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Artıq hamıya aydındır ki, sonuncu, ən uzunömürlü və qartımış imperiya olan Rusiya çökməyincə, dünyada dinclik və əmin-amanlıq da heç vaxt bərqərar olmayacaq. Ukrayna hadisələrinin demokratik dünya üçün ən böyük dərsi, zənnimizcə, bundan ibarətdir.**

Acı gerçəklik həm də odur ki, SSRİ-nin süqutundan sonra "çomağı yerə qoyub" arxayınlaşan, Rusiyanı Avropaya inteqrasiya etdirib bazar iqtisadiyyatına keçirməklə, hətta demokratikləşdirməklə özündən asılı salacağını, heç olmasa tərəfdaşa çevirəcəyini düşünən Qərbin planları fiasko olub. Məlum olub ki, "rus ayısı"nı "ram eləmək" və ya zərərsiz hala gətirmək mümkün olmayıb. Əksinə, Qərbin qabaqcıl texnologiyalarına çıxış şansı bulan köhnə və yaralı imperiya öz qamətini qısa müddətdə dikəldərək, güclü revanş (qisas) həvəsi ilə alışıb-yanan daha qorxulu düşmənə dönüb.

Beləcə, Qərb onun hesabına ayağa qalxan Rusiya ilə, bu dövlətin avantürist və proqnoza yatmayan prezidenti, KQB-nin ali hakimiyyətdəki sonuncu kadrı Vladimir Putinlə nə edəcəyini bilmir. İqtisadi-maliyyə sanksiyaları isə sövq-təbii Rusiyanın Avroatlantik məkana qismən inteqrasiya etməsi üzündən Avropa ölkələrinə də zərbə vurmaqda və daxildə narazılıq yaratmaqdadır.

Amma geriyə yol da yoxdur. Geriyə çəkilmək - Rusiya imperiyasının daha geniş ərazidə zühur eləməsi, postsovet məkanının, Ukraynanın, Moldovanın, Güney Qafqazın, habelə zəngin karbohidrat qaynaqlarına malik Xəzər hövzəsinin Kremlə güzəştə gedilməsi, demokratiyanın böyük bir məkanda ağır məğlubiyyəti, Avropaya yeni və daha ciddi təhdidlər deməkdir.

Bunları Amerika və Avropanın "beyin mərkəzləri"ndə bilməmiş deyillər. Odur ki, qəti əminliklə yazmaq olar ki, Qərb Ukrayna məsələsində ziyan görsə də, dala addım atmayacaq. Zira, bu, demokratik dünya ilə ən yaşlı imperiyanın son və həlledici döyüşüdür, ölüm-olum məsələsidir. Şübhəsiz, hərbi müstəvi istisna olmaqla, Moskvaya qarşı bu savaş yerdə qalan bütün müstəvilərdə - iqtisadi-maliyyə, siyasi-diplomatik, texnoloji sferalarda, hətta mədəniyyət, idman, incəsənət müstəvilərində ən sərt və amansız şəkildə davam edəcək...

Yeri gəlmişkən, bu günlərdə Rusiyanın ən hiyləgər siyasətçilərindən biri, Xarici Kəşfiyyat İdarəsinin sabiq başçısı və keçmiş xarici işlər naziri Yevgeni Primakov Qərblə qarşıdurmanın Rusiyaya baha başa gələ biləcəyi barədə xəbərdarlıq edib. Onun sözlərinə görə, Rusiya ən azından, qabaqcıl texnologiyalar sahəsində geridədir və yalnız ABŞ və Avropanın hesabına bu geriliyi aradan qaldırmaqda idi, lakin "Ukrayna olayları bu prosesi dayandırdı".

Əfsus ki, bu gün Kremlin, özəlliklə polkovnik Putinin belə görünür, ağıllı və uzaqgörən qafalara ehtiyacı yoxdur. İndi ona Qərbi daha ehtirasla hədələyən və söyən, onunla məzələnənlər qiymətlidir. Putinin mətbuat katibi Dmitri Peskov kimi. Söz düşmüşkən, bu adam Avropa Birliyinin Rusiyaya qarşı qəbul etdiyi son sanksiyalar paketini utanıb-eləmədən "qanunsuz" adlandırıb.

"Qanunsuz sanksiya". Rusiya başqa suveren dövlətin ərazisi olan Krımı qanuni yolla işğal edibmiş xəbərimiz yox. Donetsk və Luqansk separatçılarına görünməmiş hərbi yardımı, mülki təyyarələri belə vuran "Buk" tipli zenit-raket sistemlərini də qanuni əsasda ötürürmüş - bilmirmişik. 2008-ci ildə müstəqil Gürcüstanın ərazisinə də ruslar məhz beynəlxalq hüquqa hörmət əlaməti olaraq soxulubmuşlar - bundan da xəbərimiz yoxmuş.

Ümumiyyətlə, Rusiya qanuni bir imperiya, qanuni bir təcavüzkar imiş, yerdə qalanlar isə hər an ərazisinə müdaxilə oluna, bütünlüklə zəbt edilə bilən qanunsuz və "çmo ölkələr" - Peskov kimilərin imperiya məntiqinə görə, təbii ki. Lap dəsmal götürüb bu "zərərçəkmiş" Rusiya üçün, "yazıq" işğalçı üçün göz yaşı tökmək istəyirsən...

***

Bəs, Rusiya durdurulacaqmı və bunu kim edəcək? Ən əsası, durdurulan imperiyadan nə qalacaq? İlanı əzmək üçün öncə onun başı zərərsizləşdirilməlidir deyirlər. Rusiyanın zəhərli hissəsi yenə də saxlanacaqmı? Azad bəşəriyyətin cavab tapmalı olduğu kritik sual budur.

YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014



## İsa Qəmbər Müsavatın parçalanacağı xəbərlərindən danışdı

### “Seçkilərin nəticələrindən kimsə narazı qalıb partiyanı tərk edib gedəcəksə...”

**Müsavat Partiyasının başqanı İsa Qəmbər qərargahda jurnalistlərin suallarını cavablandırıb. “Qafqazinfo”nun verdiyi xəbərə görə, İ.Qəmbər Bakı meriyasının qurultay üçün təklif etdiyi Əmircandakı mədəniyyət evi haqda danışıb.**

O bildirib ki, Məclisin qərarı yerinə yetirilməlidir: “Sentyabrın 27-də qurultay keçirilməlidir. Məkan məsələsi ilə bağlı qərar həftənin birinci günü müzakirə edilib veriləcək. Bununla bağlı şəxsi fikrimi iclasda səsləndirəcəyəm”.

Müsavat başqanı qurultaydan sonra sıravi müsavatçı kimi qalmaq istədiyini bildirib: “Amma son qərarı müsavatçı dostlarla, məsləkdaşlarla bir yerdə verəcəyik”.

**İsa Qəmbər qurultaydan sonra gözlənilən parçalanmalar və önləyici planlar haqda da danışıb:**

“Müsavat Partiyası hər zaman cəmiyyətə yeniliklər təqdim edəndə barəsində belə iddialar tez-tez səsləndirilir. Heç zaman da doğrulmur. Əminəm ki, bundan sonra da doğrulmayacaq. Seçkilərin nəticələrindən kimsə narazı qalıb partiyanı tərk edib gedəcəksə, bu onun zəifliyi kimi qiymətləndiriləcək. Düşünmürəm ki, bu, Müsavatda böyük əsk-səda yaradacaq. Seçki məhz ondan ötrüdür ki, seçən şəxslər kiməsə üstünlük versinlər. Seçilməyən şəxs də seçilənin iradəsinə hörmətlə yanaşmalıdır. Türkiyədə keçirilən parlament seçkilərindən sonra tanınmış siyasətçinin çıxışını xatırlayıram. Məğlub olmuşdu. Partiyanın lideri dedi ki, müxalifət bu dəfə bizə müxalifət missiyasını tapşırdı. Yəni aldığı səsləri bu qədər yüksək qiymətləndirdi. Buna görə kiminsə gedəcəyini düşünmürəm. Gedəcəksə də yanlış yapacaq».

## İstiqlalçı deputatlar kimi Müsavat başqanı görmək istəyir?

### Məryəm Həsənova: “İyirmi yaşlarındaydı Arif Hacılını tanıyanda, elə bil əlimdə-ovcumda böyüyüb”

### İsgəndər Həmidov: “Müsavatdakı seçkilərə hörmətlə yanaşacağam, amma Arif Hacılını çox istəyirəm”

**Müsavat Partiyasının üzvü, Azərbaycanın yeganə xanım istiqlalçı deputatı Məryəm Həsənova partiyanın başqanlığına namizədlərlə bağlı mövqeyini “Yeni Müsavat”a açıqlayıb. Məryəm Həsənova bildirdi ki, İsa Qəmbərdən sonra Müsavat Partiyasının başqanı vəzifəsini həyata keçirmək çox böyük məsuliyyət tələb edir. Yəqin ki, başqanlığa iddiaçılar bu məsuliyyəti dərk edərək bu qərara gəliblər: “Mən namizədlərin dördünü də tanıyıram. Onların hər biri mənim üçün əziz müsavatçılardır. Arif Hacılını anamın balası qədər tanıyıram, qiymətləndirirəm. İyirmi yaşlarındaydı Arif Hacılını tanıyanda, elə bil əlimdə-ovcumda böyüyüb. Arif Hacılı əqidəli, yolundan dönməyən, təpədən-dırnağa müsavatçıdır.**

Qubad İbadoğlundan söhbət gedirsə, onun böyük savada malik iqtisadçı olduğunu, kitablarının olduğunu söyləmək vacibdir. Qubad bəyin də bütün keyfiyyətlərini bilirəm. Yəni Qubad İbadoğlu da Müsavat üçün lazımlı şəxslərdəndir. Tural Abbaslı mübariz gəncdir, mübariz müsavatçıdır. Bu dörd nəfərin əqidəli müsavatçı olması mənə məlumdur. Hamısı mənə əzizdir. Amma onların sırasından kimə səs verəcəyimi indi açıqlamaq fikrində deyiləm. Rayon təşkilatımızdan qurultaya nümayəndə seçilmişəm. İnşallah, qurultayda səsimi yaxından tanıdığım namizədə səs verəcəyəm. Kimə səs vermək mənim işimdir və onu açıqlamamaq hüququm var".

İstiqlalçı deputat, sabiq daxili işlər naziri İsgəndər Həmidov isə Müsavatın üzvü olmasa da Müsavat başqanı postunda kimi görmək istədiyini açıqlayıb. Modern.az-a açıqlamasında İ.Həmidov deyib ki, Müsavat Partiyasının bütün üzvlərinə hörmətlə yanaşır. Bu partiyada kifayət qədər ağıllı, savadlı insanlar var.

**İsgəndər Həmidov namizədlərin şanslarını dəyərləndirərkən daha çox Arif Hacılının üzərində dayanıb:** “Arif Hacılı ilə uzun bir mübarizə yolu keçmişəm. Arif Hacılı Azərbaycanın müstəqilliyi uğrunda çalışan şəxsdir. Siyasi mübarizəsinə görə həbsdə olub. Bunlar hamısı göstəricidir. Mən Müsavatdakı seçkilərə hörmətlə yanaşacağam. Amma Arif Hacılını çox istəyirəm. Namizədlərdən hansı başqan seçilsə, məmnuniyyətlə Müsavatla əməkdaşlıq edəcəyəm”.

Keçmiş nazir Müsavat başqanı İsa Qəmbərin başqanlıqdan gedəndən sonrakı statusu haqqında isə bunları deyib: “İsa Qəmbər öz ağsaqqallığını Müsavatdan əsirgəməyəcək”.

❑ ETİBAR




# Qubad İbadoğlu Müsavat başqanlığına namizədliyini verdi

### O, səkkiz bənddən ibarət platformasını da açıqladı və partiyanın qurultaydan güclənərək çıxacağını vurğuladı...

**Musavat.com-un xəbərinə görə. Q.İbadoğlu bu məqsədlə Müsavat Partiyasının qərargahında keçirdiyi mətbuat konfransında başqanlığa namizəd olmaq üçün Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sədri, Müsavat başqanı İsa Qəmbərə ərizə ilə müraciət etdiyini vurğulayıb.**

Sentyabrın 12-də Müsavat Partiyası Divanının keçmiş üzvü, tanınmış iqtisadçı Qubad İbadoğlu partiya başqanlığına namizədliyini rəsmən irəli sürüb.

Q.İbadoğlu seçki platformasını da açıqlayıb, başqan seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb. Başqanlığa namizəd bildirib ki, seçki platforması “8 addımla 2018-ə” adlanır:

**Birinci addım Müsavat Partiyasında yaxşı olanları saxlamaqla yeni yaxşılar yaratmaqdır:** “Müsavat Partiyasının şərəfli tarixindən, Məhəmməd Əmin Rəsulzadənin zəngin irsindən, İsa Qəmbərin siyasi təcrübəsindən qaynaqlanan kursu davam etdirmək, müsavatçılıq ideologiyasına və məfkurəsinə sadiq qalaraq müasir sivil siyasi mübarizə vasitələri ilə Azərbaycanda açıq hökumət, azad cəmiyyət və fərdi azadlıqlara təminat verən Müsavat hakimiyyətinin demokratik yolla formalaşmasına nail olmaq”.

**İkinci addım gəncliyi Müsavatın aparıcı qüvvəsinə çevirməkdən ibarətdir:** “Partiyaya demokratik ideyaların carçısı olan müasir dünyagörüşlü, fədakar gəncləri cəlb etməklə Müsavatın potensialını genişləndirmək. Partiya idarəetməsinin bütün səviyyələrində gənclərə yer vermək, onların potensialından daha çox və daha səmərəli istifadə etmək”.

**Üçüncü addım Azərbaycanın gələcəyinə baxışın alternativlərini yaratmaqdan ibarət olacaq:** “Partiyadakı mövcud potensialı cəmiyyətin müstəqil intellektual potensialı ilə bütünləşdirməklə ölkənin inkişafının hər dönəmi üçün alternativ proqramlar və konsepsiyalar işləmək və onları ictimai müzakirəyə çıxarmaq”.

**Dördüncü addım şəffaf və hesabatlı siyasi partiya modeli yaratmaqdan ibarətdir:** “Partiyada kollegial idarəetmə, şəffaf və hesabatlı qərarvermə prosedurlarının təkmilləşdirilməsi vasitəsilə partiyadaxili demokratiyanı gücləndirmək, hər bir üzvün fərdi azadlıqlarına hörmət əsasında partiyanın təşkilati inkişafına və ictimai əlaqələrinə töhfə vermək, mütəmadi maliyyələşmə mənbələrinə dair ictimaiyyətə açıq olan hesabatlar hazırlamaq”.

**Beşinci addım isə Müsavat Partiyasının seçkilərdə iştirakına və qələbəsinə nail olmaqdan ibarətdir:** “Siyasi şəraitdən asılı olaraq partiyanın seçkilərdə iştirakı barədə kollegial qərarlar qəbul etmək, 2015-ci il parlament və 2018-ci il prezident seçkilərində partiyanın hətta minimum demokratik seçki mühitində belə qələbələrini reallaşdırmağa nail olmaq”.

**Altıncı addım Qarabağın azadlığı üçün Azərbaycanın haqq səsinin beynəlxalq aləmdə eşidilməsinə çalışmaq olacaq:** “Qarabağın azad olunmasına qədər olan dövrdə məcburi köçkün və qaçqınların sosial-iqtisadi vəziyyətini diqqətdə saxlamaq, Qarabağın işğaldan azad olunması üçün davamlı çalışmaq, Qarabağın işğaldan azad olunmasından sonrakı dövr üçün bərpa planını hazırlanmaq, müxtəlif səviyyəli beynəlxalq toplantılarda Azərbaycanın bu sahədəki haqlı və ədalətli mövqeyini müdafiə etmək”.

**Yeddinci addım Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasını sürətləndirməkdir:** “Azərbaycanın Avropa Birliyinin «Şərq tərəfdaşlığı» proqramında iştirakının genişlənməsi, assosiasiya sazişinə qoşulması, Dünya Ticarət Təşkilatına daxil olması üçün davamlı səylər göstərmək, dövlətin bu istiqamətlərdə hədəfləri bəlli olan xarici siyasət kursunun müəyyənləşdirilməsinə çalışmaq”.

**Səkkizinci addım isə milli maraqları və dövlətçilik maraqlarını partiya maraqlarından üstün tutmaqdır:** “Ölkənin müstəqilliyinə, ərazi bütövlüyünə təhlükə yaranarsa, dövlətin maraqlarını partiya maraqlarından üstün tutmaq, Azərbaycan dövlətinin və onun müstəqilliyinin qorunmasında fəal iştirak etmək”.

Qubad İbadoğlu həmçinin qeyd edib ki, ictimai sektordakı bütün vəzifələrindən istefa verib və QHT sektorundakı fəaliyyətini dayandırıb. O, İqtisadi Tədqiqatlar Mərkəzinin, Amerika Təhsili Məzunlar İctimai Birliyinin, Milli Büdcə Qrupunun İdarə Heyəti üzvlüyündən, Mədən Hasilatında Şəffaflıq Təşəbbüsünün koordinatoru postlarından istefa verib. Q.İbadoğlu bildirib ki, buna baxmayaraq, iqtisadçı kimi işini davam etdirəcək.

**Onun sözlərinə görə, Müsavat sentyabrın 27-də keçirəcəyi qurultaydan güclənərək çıxacaq:** “Azərbaycanda seçkiyə inam və etibar itib, insanlar seçkilərə inanmırlar. Ölkənin seçki imici korlanıb. Belə bir ağır vəziyyətdə biz partiyadaxili seçki ilə bu mənfi imici aradan qaldırmaq, insanların seçkiyə inam və etibarını bərpa etmək, onların diqqətini bu məsələyə yönəltmək istəyirik. Müsavat Partiyası qurultaydan güclənib çıxacaq”.

**Qurultayda yeni başqan seçiləndən sonra Müsavatın hazırkı başqanı İsa Qəmbərə xüsusi statusun verilib-verilməyəcəyinə gəlincə, Q.İbadoğlu bildirib ki, heç bir status verilməyəcək:** “Çünki Azərbaycanda bu məsələ müsbət qarşılanmır. Amma qurultay belə bir qərar versə, mən də razılaşacam. İsa Qəmbər elə bir siyasətçidir ki, onun xüsusi statusa ehtiyacı yoxdur. O, hər hansı postda olmasa belə hadisələrə, proseslərə kifayət qədər təsir etmək gücündə olan siyasətçidir. İsa Qəmbər bundan sonra da Müsavatın, Azərbaycan siyasətinin ən önəmli simalarından biri olaraq qalacaq”. Q.İbadoğlu İsa Qəmbərin Müsavatdan getməyəcəyini və seçkidən sonra partiyanın Məclis üzvlüyünə namizədliyini vermək niyyətində olduğunu bildirib.

**Q.İbadoğlunun sözlərinə görə, 2018-ci ildə keçiriləcək prezident seçkisində Müsavatın namizədi İsa Qəmbər olacaq:** “Çünki seçkiyə güclü namizədlə getmək istəyirik. Bu gün prezidentliyə ən güclü namizəd İsa bəydir”. O, həmçinin Müsavatın heç bir qrant hesabına fəaliyyət göstərməyəcəyini də qeyd edib.

**Qeyd edək ki, Müsavat başqanı İsa Qəmbər də qərargahda jurnalistlərin suallarını cavablandırıb və başqanlıq seçkisindən danışıb. O, Bakı meriyasının qurultay üçün təklif etdiyi Əmircandakı mədəniyyət evi haqda danışıb və bildirib ki, Məclisin qərarı yerinə yetirilməlidir:** “Sentyabrın 27-də qurultay keçirilməlidir. Məkan məsələsi ilə bağlı qərar həftənin birinci günü müzakirə edilib veriləcək. Bununla bağlı şəxsi fikrimi iclasda səsləndirəcəyəm”. Müsavat başqanı qurultaydan sonra sıravi müsavatçı kimi qalmaq istədiyini bildirib: “Amma son qərarı müsavatçı dostlarla, məsləkdaşlarla bir yerdə verəcəyik”.

**İsa Qəmbər həmçinin qurultaydan sonra gözlənilən parçalanmalar və önləyici planlar haqda da danışıb:** “Müsavat Partiyası hər zaman cəmiyyətə yeniliklər təqdim edəndə barəsəsində belə iddialar tez-tez səsləndirilir. Heç zaman da doğrulmur. Əminəm ki, bundan sonra da doğrulmayacaq. Seçkilərin nəticələrindən kimsə narazı qalıb partiyanı tərk edib gedəcəksə, bu onun zəifliyi kimi qiymətləndiriləcək. Düşünmürəm ki, bu, Müsavatda böyük əsk-səda yaradacaq. Seçki məhz ondan ötrüdür ki, seçən şəxslər kiməsə üstünlük versinlər. Seçilməyən şəxs də seçilənin iradəsinə hörmətlə yanaşmalıdır. Türkiyədə keçirilən parlament seçkilərindən sonra tanınmış siyasətçinin çıxışını xatırlayıram. Məğlub olmuşdu. Partiyanın lideri dedi ki, müxalifət bu dəfə bizə müxalifət missiyasını tapşırdı. Yəni aldığı səsləri bu qədər yüksək qiymətləndirdi. Buna görə kiminsə gedəcəyini düşünmürəm. Gedəcəksə də yanlış yapacaq”.

❑ Röya RƏFİYEVA
Foto müəllifindir

YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014




# Partiya funksionerləri görüş keçirib

**Sentyabrın 11-də Ümid Partiyasının mərkəzi qərargahında partiya funksionerləri Bakı şəhərində bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə, sentyabrın 12-də isə Ümid Partiyası Ali Məclisinin sədri Rəfail Tağızadə, İcra Aparatının rəhbəri Taleh Əliyev, sədrin humanitar məsələlər üzrə müavini Səməd Hətəmov Siyəzən rayonuna səfər edərək bu rayondan və Şabrandan bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvləri ilə görüşüblər.**

Partiya funksionerləri partiyanın seçkilərə qatılmasının əhəmiyyəti və səbəbləri ilə bağlı məruzə ilə çıxış ediblər, mövzu ilə bağlı sualları cavablandırıblar, seçkilərə hazırlıqla bağlı tapşırıq və tövsiyələrini veriblər.

Bələdiyyə seçkilərinə hazırlıqla bağlı Ümid Partiyası funksionerlərinin bölgələrə səfəri davam edir.








**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Ümid Partiyasında yeniyetmə və gənclər üçün seminar



**Sentyabrın 12-də Ümidin qərargahında partiyanın Qadınlar Təşkilatının təşkilatçılığı ilə "Sağlamlığın alternativi yoxdur" aksiyası çərçivəsində növbəti psixoloji seminar keçirilib. Bu dəfə təcrübəli psixoloq böyüklərlə deyil, vaxtını yeniyetmə və gənclərə həsr edib. 15-25 yaş arası oğlan və qızları maraqlandıran suallar cavablandırıb, onlara faydalı məsləhətlər verib.**



Depressiya, stressin idarə olunması, intihar səbəbləri, ailədə və cəmiyyətdə davranış qaydaları barədə geniş diskussiya aparılıb və cəmiyyətdə mövcud olan problemlər müzakirə edilib.

Bu sahədə maarifləndirmə işinin təşkilinə ciddi ehtiyac olduğu vurğulanıb.

Ümid Partiyası Qadınlar Təşkilatının sədri Səidə Bahadurqızı profilaktik tədbirlər baxımından tədbirin əhəmiyyətli olduğunu, yeniyetmə gənclərə müsbət təsiri etdiyini və valideynlərin tədbirin silsilə davam edilməsini xahiş etdiklərini bildirib. Qeyd edib ki, Ümid Partiyası bacardığı qədər öz üzvlərinin sağlamlığını diqqətdə saxlayır. Bu səbəbdən 2014-cü ilin iyul ayından etibarən Qadınlar Təşkilatının təşəbbüsü ilə partiya üzvləri üçün "Sağlamlığın alternativi yoxdur" adlı sosial aksiyalar keçirilib. Bu yeniyetmə və gənclərlə keçirilən sayca 2-ci psixoloji seminardır.

Sonda Səidə Bahadurqızı dəvəti qəbul edən, Hippokrat andına sadiq qalan həkimə təşəkkür edib.





# Modelimiz gəlir!

Zamin HACI
zaminhaci@gmail.com

**Naxçıvandakı çuçxe rejiminin Bakıdakı yapistlər üçün bir laboratoriya olduğunu dəfələrlə yazmışıq. İndi bunu yapistlər özləri də etiraf edirlər. Dünən Səyavuş Novruzovun intervüsü gözümə dəydi, deyirdi ki, Naxçıvan modelini bütün Azərbaycana tətbiq edəcəyik.**

Çox gözəl, çox xariqüladə... Oğullu-uşaqlı olsun, respublikamızla qoşa qarısın. Ə bə bunu niyə indiyə qədər demirdiniz, hıy?! Gül kimi modeldir, əziz başınız haqqı. Tərtəmiz milli mentalitetimizə uyğun bir şeydir.

Ey gidi dünya... Mənim yadıma 20-25 il qabaq, xalqımızın ağzının hələ isti yerdə olduğu vaxtlar düşdü. O zaman xalq hərəkatı-zad beynimizi pozmuşdu, cəmiyyət gündə bir modeldən danışırdı, qəzetlər gah Türkiyə modelindən, gah yapon möcüzəsindən, nə bilim, "Asiya pələnglərindən" qırıldadırdı. Bəzi gülməşəkər analitiklərimiz isə Güney və Quzey Azərbaycanı birləşdirib bunun Almaniya modelinə uyğun inkişafını cızırdı. Küveyt modeli, Norveç üsulu, canım sənə desin, Braziliya sistemindən-filandan dəm vuranlar da var idi. Azca düşünmək qabiliyyəti olan, yəni, qaşığı qulağının dibinə yox, ağzına aparan hər kəs Azərbaycanın gələcəyi üçün bir model ortaya qoyurdu. Əcəb modelli günlər idi...

Ancaq illər dərələrdən sel kimi, təpələrdən yel kimi keçib getdi, bir gün ayılıb gördük ki, qismətimiz Naxçıvan modeliymiş. Bəli, qismət belədir. Fələyin oyunundan hara qaçacaqsan? Bizə bu da çoxdur. Naxçıvan modelinin içində ayrıca Şərur modeli də var, onu tətbiq eləsələr neyləyərdik?

Hələ şükür edək hökumətimiz bizim üçün Naxçıvan modeli düzüb-qoşur, heç model olmasa neyləyərdik? Modelsiz yaşamaq çətindir. Gərək xalqa hansı yolu gedəcəyini göstərəsən, azıb cəbhə xəttini keçməsin, erməniyə əsir düşməsin.

Bunlar öz yerində, ancaq görkəmli sənətkarımız Səyavuş müəllimin intervüsündəki bir cümləni heç başa düşmədim. İntervünün lap qabağında idi, elə fikirləşməyin axıracan oxumuşam. Hələ o dərəcədə dəbə, modaya uymamışıq. Bunu da yazıram ki, bəlkə intervünü axıracan oxuyanlar aranızda var, mənə məktub yazsınlar, izah eləsinlər Novruzov nə demək istəyibdir. Uzun sözün qısası, cümlə budur: "YAP-ın mərkəzi qərargahında olan insan işçilər rayon qərargahlarından azdır".

Yoxsa Səyavuş müəllim YAP-ın mərkəzi qərargahında robotları da işlətdiklərini demək istəyir? Bu robotlar əl çala, baş əyə, yalmana bilirmi? Lazım gəlsə Qarabağı almağa hazır robotlar varmı?

Nədirsə sirli söhbətdir. Orda insanlardan başqa kim işləyir? Məsələn, hər hansı partiyanın qərargahında döşəməni xartıldadıb dövlət büdcəsi kimi dəlmədeşik edən siçovul, siçan, opossum, taxtabiti, danadişi, quleybanı, halarvadı və sairə gəmiricilər partiyanın işçiləri sayılırmı? Onların yuvasına siçan dərmanı töksək partiya quruculuğuna qarşı repressiyadırmı? Bəlkə bəzi partiyalar elə qərargahlarındakı qeyri-insani varlıqları da ştata yazmaqla üzv sayını 1 milyona çıxardırlar?

Qayıdaq modelimizə. Naxçıvan modelinin Azərbaycanda tətbiqi üçün ilk olaraq yas yerlərində ehsanların yığışdırılması seçilib. Bir növ, axırdan başlayıblar. Eybi yox, təki başlasınlar. Növbəti addımlar olaraq bütün şəhər və rayonlarımızda əhalinin iki-iki gəzməsini qadağan etmək lazımdır. Yeri gəlmişkən, Vasif müəllim Naxçıvanda hətta tək gəzməyi də qadağan edib, ancaq biz hələ o səviyyəyə iddia etmirik. Yavaş-yavaş... İlandağ bir günə tikilməyib ki? Vasif müəllim onun daşını Nil vadisindən belində daşıyıb.

Daha sonra təndirxanaları, çayxanaları bağlamaq, büdcə zəhmətkeşlərini qarğıdalı və çuğundur yığımına cəlb etməliyik. Yoxsa Bakıda elə müəllimlər var, harınlayıblar, çuğundurun ağacda yetişdiyini düşünürlər. Bəzi həkimlərimiz isə süpürgə və xəkəndazı tanımır! Ar olsun onlara.

Naxçıvan modeli mənim də yaxın günlərdə Bakıda çıxacaq "Yeni Şərq qapısı" qəzetində çalışacağımı proqnoz edir. Olsun. Həmişə hazırıq! Lenin baba yolunda! Arxivimdə taxıl əkinlərinə meliorativ qayğı üzrə Vasif müəllimin tövsiyələrindən uzun sitatlar var, səhifəyə qoyacağam.

**"The New York Times" qəzeti Rusiyanın yeni Qafqaz siyasəti haqda müəllif yazısı ilə çıxış edib. Yazının müəllifi Azərbaycanda yaxşı tanınan Amerika doğumlu Brenda Şafferdir. B.Şaffer bir müddət Azərbaycan Diplomatik Akademiyasında çalışıb. Professor Şaffer "Enerji Siyasəti" kitabının müəllifi və beynəlxalq münasibətlərdə enerji və Qafqaz regionunda enerji təhlükəsizliyi üzrə ekspertdir. Qərb dilləri ilə yanaşı rus, türk və Azərbaycan türkcəsini yüksək səviyyədə bilir. Müəllif yazısında bildirir ki, rəsmi Moskvanın Ukraynadan sonra göz dikdiyi yerlərdən biri də Qafqazdır:**



# "Rusiya Qarabağa qoşun yeritmək istəyir"

## Amerikalı professor Brenda Şaffer Soçi görüşünün məqsədini açıqladı

"Ukrayna Rusiyanın suyu bulandırdığı yeganə yer deyil. 1991-ci ildə SSRİ dağıldıqdan sonra Rusiya sərhədyanı bölgələrdə həmişə separatizmi dəstəkləyib. Bu dəstəyin isə səbəbi o olub ki, Rusiya bu yolla həmin ölkələri öz nəzarətində saxlamaq istəyib. Onlara öz iradəsini bu yolla diktə edib. Artıq cənubi Qafqazda belə bir proses yenidən gündəmə gəlir", deyə müəllif yazır.

"Artıq neçə həftədir ki, Moskva Ermənistanla Azərbaycan arasında olan köhnə münaqişəni alovlandırmağa çalışır. Eyni zamanda özünü hər iki tərəfə sülhsevər hakimi-mütləq qismində sırımağa çalışır. Avqust ayında bu ölkələr arasında yenidən güclənən münaqişə zamanı hər iki tərəfin itkilərinin birgə sayı 40 nəfər olmuşdu" deyə məqalədə deyilir.

**Yazıdan iqtibas etdiyimiz bu məqamda da düşündürücü şeylər çoxdur:** "Həllini tapmamış münaqişəni Rusiya "dondurulmuş münaqişə" adlandırır. Və bu amil Rusiyaya hər iki ölkəni şantaj etmək üçün fürsət verir. Rusiya isə göründüyü kimi, bu ölkələrin Qərblə yaxınlaşmasına imkan vermir. Bu ölkələr də Qərbə yaxınlaşmağa ehtiyat edirlər, qorxurlar ki, Moskva onları Qərbə meylləndiklərinə görə ağır cəzalandıra bilər. Münaqişə zonasındakı qanlı olaylardan sonra tərəflər avqustun 10-da Soçidə görüşdülər. Həmin görüş zamanı Putinin əsas istəyi o idi ki, Ermənistanla Azərbaycan arasında Rusiya sülhməramlılarının yerləşdirilməsinə nail olsun". **Yazı müəllifində olan məlumatlara görə, Ermənistanla Azərbaycan arasında baş vermiş son qanlı olaylara rəsmi İrəvan rəvac verib. Ermənistan Azərbaycana hücum edəndə ölkə prezidenti də, müdafiə naziri də Bakıda olmayıb. Onun fikrincə, Rusiyanın icazəsi olmadan Ermənistan belə irimiqyaslı təxribata cəsarət etməzdi.**

"Cənubi Qafqazda stabilliyin pozulması Avropaya gedəcək nəhəng qaz xəttinin çəkilişini əngəlləyə bilər. Həmin qaz xəttinin çəkilişinə isə 2013-cü ildə qərar verilib. Orta Asiyadan da gələn neft və qaz məhz buradan Avropaya nəql edilir. Avropa Rusiyadan qaz asılılığını azaltmaq üçün bu xəttə çox ümidlə baxır. Çünki bu xətt Rusiyadan kənarda qalan bir xətdir. Qərb imkan verməməlidir ki, Rusiya 2008-ci ildə cənubi Osetiyanı və Abxaziyanı Gürcüstandan ayırdığı kimi və elə bu yaxınlarda Krımı Ukraynadan qopardığı kimi cənubi Qafqazda da yeni əraziləri ələ keçirsin", müəllif bölgənin Qərb üçün önəmini belə dəyərləndirir.

**Brenda Şaffer yazır ki, Rusiyanın Soçidə təşkil etdiyi görüşü Amerika hökumətinin alqışlamasını eşitmək onun üçün çox gözlənilməz olub:** "Doğrudanmı Gürcüstan və Ukraynada baş verənlər ABŞ üçün dərs olmadı? Qafqazda münaqişədən yayınmaq və Putinə əlavə arqumentlər verməmək üçün prezident Obama Azərbaycan və Ermənistan liderlərini Vaşinqtona dəvət etməlidir. Amerika prezidenti bununla göstərməlidir ki, ABŞ cənubi Qafqazı taleyin ümidinə buraxmayıb".

Yazıda qeyd olunur ki, SSRİ dağıldıqdan sonra Dağlıq Qarabağda 90 min insan yaşayırdı. Onların əksəriyyəti xristian erməni idi. Onlar isə müsəlman Azərbaycanın tərkibində yaşamışdı. Bu münaqişə zamanı isə 30 min insan öldürüldü. Üstəlik, Ermənistan silahlı qüvvələri faktiki Rusiyanın nəzarətinə keçdi. Ermənistanın hava sərhədləri də Rusiyanın əlindədir, iqtisadiyyatı da, infrastrukturları da Rusiyadan asılıdır.

Məqalə müəllifi yazır ki, Soçi görüşü də heç bir konkret nəticə əldə olunmadan başa çatıb. Bundan əvvəl isə Ermənistan bəyan etmişdi ki, Avropa Birliyi ilə müttəfiqlik səviyyəsində əməkdaşlıqdan imtina edir və Moskvanın təklif etdiyi Avrasiya İqtisadi Birliyinə maraq göstərir.

"Vaşinqton bütün bu münaqişələrə görə Rusiyanı açıq şəkildə günahlandırmalıdır və imkan verməməlidir ki, Rusiya qondarma "sülhyaratma" bəhanəsi ilə öz qoşunlarını Cənubi Qafqaza yeritsin. Dağlıq Qarabağ nə qədər uzaq görünsə də Rusiya həmin münaqişədən yenidən istifadə edərək dağılmış imperiyanı yenidən bərpa etməyə cəhd edir. Əgər Cənubi Qafqaz öz suverenliyini Rusiyanın xeyrinə itirsə, bu, Amerikanın onsuz da məhdudlaşan təsir dairəsinə öldürücü zərbə vura bilər. Bu isə Amerikanın postsovet regionundan kənara atılması demək olardı" deyə, müəllif qeyd edir.

❑ Elbəyi HƏSƏNLİ

# 1000-ə yaxın rus əsgəri hələ də Ukraynadadır

**NATO 1000-ə yaxın Rusiya əsgərinin Ukrayna daxilində olduğunu bildirib. Daha əvvəl isə Ukrayna prezidenti Petro Poroşenko ölkədə olan rus qüvvələrinin 70 faizinin geri qayıtmasının atəşkəsin qüvvədə qalmasına yardım edəcəyini deyib.**

NATO-nun hərbi komandiri alyansın bu haqda heç bir məlumata malik olmadığını bildirib. Adı çəkilməyən zabit bildirib ki, bu, yaxşılığa doğru ilk addım ola bilərdi.

O, Ukraynada hələ də çoxsaylı hərbi təchizatın və sərhədlər boyunca Rusiyanın 20 min əsgərdən ibarət qüvvəsinin qaldığını bəyan edib.

Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurası separatist qüvvələrin Rusiya ilə sərhədyanı bölgələrdəki ərazilərin nəzarəti genişləndirdiyini bildirib.

Moskva separatistlərin Rusiyadan yardım aldığını etiraf etmələrinə baxmayaraq, qüvvələri və hərbi təchizatın Ukraynaya daxil olduğunu inkar edir.



# Avropa İttifaqından Rusiyaya qarşı şok sanksiyalar

**Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi yeni sanksiyaların siyahısı açıqlanıb. "Qafqazinfo" xəbər verir ki, sanksiya tətbiq edilən sahələr və şəxslərin adları Aİ-nın rəsmi jurnalında dərc edilib. Siyahıya əsasən sanksiyalar "Rosneft", "Transneft" və "Qazprom" şirkətlərinə tətbiq ediləcək. Yeni sanksiyalara əsasən, Aİ Avropa şirkətlərinə rusiyalı həmkarları üçün dərin sular, arktik və şist neftinin kəşfiyyatı və istehsalı sahəsində xidmətlər göstərməyə qadağa qoyub. Bura xüsusən də quyuların qazma və geoloji işləri daxildir.**

Yeni sanksiya siyahısına Dövlət Dumasının deputatları Jurov, Leviçev, Lebedev, Melnikov və Babkov da daxil edilib.

Aİ həmçinin Rusiyanın müdafiə sektorunun doqquz şirkətini, xüsusən də "Kalaşnikov" konsernini xammalla təchiz etməyə qadağa tətbiq edib.

İttifaq bundan başqa, Rusiyanın bir sıra dövlət banklarının kredit əldə etməklə bağlı məhdudiyyətlərini daha da kəskinləşdirib və kreditlərin qaytarılması üçün qoyulan son gün 30 gün azaldılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014

# Bu gün Azərbaycan və Türkiyə görünməmiş hərbi təlimlərə başlayır

**Türkiyə və Azərbaycanın strateji müttəfiqliyini sübut edən, düşmənə qarşı eyni cəbhədə dayandığını təsdiqləyən növbəti razılaşma əldə olunub. İki qardaş dövlətin yüksək səviyyədə verdiyi qərara əsasən, sentyabrın 12-dən etibarən Türkiyə və Azərbaycan genişmiqyaslı hərbi təlimlərə start verəcəklər.**





# "Turan ordusu" gerçəyə çevrilir: meydana 30 min canlı qüvvə çıxarılır!

## Bir həftə davam edəcək təlimlərdə 250-dən artıq zirehli texnika, raket və artilleriya qoşunlarının 150-dən çox qurğusu, 20-dək təyyarə, 15 helikopterdən istifadə olunacaq; Ermənistan təlaşda...

Sentyabrın 20-dək davam edəcək hərbi təlimlərlə bağlı Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plan haqqında Müdafiə Nazirliyi rəsmi məlumat yayıb. Məlumatda bildirilir ki, sentyabrın 13-dən 20-dək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün qoşun növlərinin, o cümlədən Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi hissələrinin cəlb olunması ilə mərhələli surətdə irimiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Birinci mərhələdə kəşfiyyatın bütün növlərinin, Xüsusi Təyinatlı Qüvvələrin, Hərbi Hava Qüvvələri, o cümlədən Hava Hücumundan Müdafiə Qoşunlarının qarşılıqlı fəaliyyəti və uzlaşma məsələlərinin öyrənilməsi nəzərdə tutulub.

İkinci mərhələdə Quru Qoşunlarının birləşmə və hissələri müxtəlif şəraitlərdə, o cümlədən dağlıq ərazidə hücum əməliyyatının təşkili və aparılması, taktiki hava desantının, reyd və ön dəstələrin tətbiqi, əməliyyatların hərtərəfli təminatı üzrə tapşırıqları yerinə yetirəcəklər.

Müdafiə Nazirliyi bəyan edir ki, Ali Baş Komandanın şəxsi göstərişinə əsasən, təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 10.000 nəfərədək hərbi vəzifəli təlim toplanışına cəlb ediləcək. Döyüş hazırlığı çərçivəsində onlarla silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçiriləcəkdir.

Üçüncü mərhələdə təlim mərkəzləri və poliqonlarda motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, döyüş təyyarə və helikopterlərinin döyüş atışları icra olunacaq, praktiki raket buraxılışları və bombalama həyata keçiriləcəkdir.

Təlimlərə 30.000 nəfərədək şəxsi heyət, 250-dən artıq zirehli texnika, raket və artilleriya qoşunlarının 150-dən çox qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək təyyarəsi və 15 helikopteri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə qoşunların hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb ediləcək. İki ölkə arasında son illərdə birgə komanda qərargah təlimləri intensivləşib. Bu ilin iyununda isə Azərbaycan və Türkiyənin silahlı qüvvələrinin irimiqyaslı hərbi təlimlərinin keçiriləcəyi barədə anons verilsə də, konkret zaman açıqlanmamışdı. Yeri gəlmişkən, bu ilin yanvarında Türkiyədə iki ölkənin Silahlı Qüvvələrinin iştirakı ilə "Qış-2014" adlı hərbi təlim keçirilmişdi.

Avqustun 19-da Naxçıvan şəhərində yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Qərargahında Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Gürcüstanın müdafiə naziri İrakli Alasaniya və Türkiyə Respublikasının milli müdafiə naziri İsmət Yılmaz arasında üçtərəfli görüşdə də mühüm razılaşmalar əldə olunmuşdu. Görünən budur ki, işğalçı Ermənistan iri layihələrdən kənarda qaldığı kimi, əməlləri sayəsində bu kimi razılaşmaları da kənardan seyr edir.

Qeyd edək ki, sentyabrın 3-7-si tarixlərində Ermənistandakı Alagöz təlim-məşq kompleksində Rusiya hərbi bazası və Ermənistan Müdafiə Nazirliyi hərbçilərinin iştirakı ilə batalyon-taktik təlimlər keçirilmişdi. Ancaq sözügedən hərbi təlimlər çox kiçik kontingenti əhatə etmişdi. Bildirilirdi ki, 1500 hərbçinin, 300 zirehli tank, avtomobil və xüsusi hərbi texnikanın cəlb olunduğu təlimlər Birləşmiş Silahlı Qoşunların və Qüvvələrin komandanı general-leytenant Mixail Qriqoryanın başçılığı ilə keçirilib. Hesab olunur ki, Azərbaycan və Türkiyənin silahlı qüvvələrinin irimiqyaslı təlimləri həm də bölgəni təhdid edən işğal faktoruna, həmçinin təcavüzkar Ermənistanı dəstəkləyən qüvvələrə cavab xarakterlidir. Azərbaycanla Türkiyənin birgə addımlarının Ermənistanda nə qədər narahatlıqla izlənməsinin əvvəllər də şahidi olmuşuq. Hələ bu ilin iyununda Naxçıvanda Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin birgə görüşündə ildə iki dəfə olmaqla belə görüşlərin davam etdirilməsi, hərbi təlimlər və sairlə bağlı əldə olunan razılaşmalar da düşmən ölkədə narahatlıq doğurmuşdu. Hətta türk dövlətlərinin Böyük Turan Ordusu yaradılması istiqamətində səyləri türk düşmənlərinin rahatlığını pozub. Ancaq görünən budur ki, Bakı ilə Ankara digər sahələrdə olduğu kimi hərbi sahələrdə də xeyli irəli gedib. Xatırladaq ki, bir müddət öncə qəzetimiz mühüm bir məsələdən bəhs etmişdi. O zaman da gözlənilirdi ki, qarşıda Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri var. Bu hərbi təlimlər həm də Türkiyə, Azərbaycan, Qırğızıstan və Monqolustanın yaratdığı, şərti adı "Turan ordusu" olan hərbi birliyin təlimləri olacaq.

Düşmən ölkədən isə artıq ilk reaksiyalar gəlməkdədir. Azvision.az-ın erməni KİV-nə istinadən verdiyi məlumata görə, Ermənistanın müdafiə naziri Seyran Ohanyan İqtisad Universitetində çıxışı zamanı bildirib ki, Azərbaycan Dağlıq Qarabağ üzrə danışıqlar prosesinə təsir etmək məqsədilə sərhəddə təxribatlar törətməyə cəhd edir. Ohanyan iddia edib ki, Ermənistan tərəfi problemin sülh yolu ilə həll olunmasını istəyir: **"Danışıqlar prosesində əsas məsələ Dağlıq Qarabağa öz müqəddəratını təyin etmə hüququnun verilməsidir".** Ohanyanın sözlərinə görə, Ermənistan qarşılıqlı güzəştlərə getməyə hazırdır. Lakin danışıqlar prosesində Ermənistanın birtərəfli güzəştlərə getməsi yolverilməzdir. Ermənilərin xüsusilə Rusiyanın sanksiyalarla sıxışdırılması şəraitində nə dərəcədə çətin duruma düşdüyü göz önündədir. Bu mənada düşmənin mələk donunda görünməyə çalışması sadəcə vəziyyətdən çıxmağa xidmət edir. NATO-dakı uğursuzluğun ardınca Ermənistan rəhbərliyi Türkiyə-Azərbaycan hərbi alyansı ilə üz-üzə qalmalı olub.

**Hərbi ekspert Azad İsazadə də təsdiqləyir ki, Türkiyə və Azərbaycan arasındakı hərbi təlimləri zəruri edən amillər kifayət qədərdir:** "Yaxın Şərq qaynayır, İŞİD qruplaşması Azərbaycan və Türkiyəni xəritədə öz ərazisi kimi göstərir. Üstəlik, Ukrayna alov içindədir və görünən budur ki, MDB məkanında da təhlükəsizlik sistemi işləmir. Deməli, iki böyük alovun arasında qalan balaca bir ərazi - Türkiyə, Gürcüstan və Azərbaycan - təhlükələri önləməlidir. Özü də fakt budur ki, bu ərazi də hərdən alovlanır. Bu mənada belə təlimlərin keçirilməsində bir neçə məqsəd var. İlk növbədə Azərbaycanın əsgər və zabitləri yeni təcrübə qazanır". **A.İsazadə hesab edir ki, Türkiyə-Azərbaycan hərbi təlimləri həm də Rusiya-Ermənistan hərbi təlimlərinə cavabdır:** "İkincisi, sözsüz ki, söhbət enerji layihələrindən gedir və o layihələrlə bağlı təhlükəsizlik dəhlizinin yaradılması üçün Azərbaycan, Gürcüstan, Türkiyə birgə addımlar atmalıdır. Yaxın Şərqdə baş verənləri nəzərə alsaq, görərik ki, doğrudan da təhlükə gələ bilər və o risklərə istər Azərbaycan, istərsə də Türkiyə hazırlaşmalıdır. Bu hazırlıq baxımından da hərbi təlimlərin keçirilməsi normaldır və Azərbaycanla Türkiyənin birgə hərbi əməkdaşlığı zəruridir".

**A.İsazadə deyir ki, Qarabağ danışıqlarının intensivləşməsi şəraitində hərbi təlimlərin keçirilməsinin üstün cəhətləri də az deyil:** "Danışıqlarda siyasi yol axtarışını yüngülləşdirən amillərdən biri hərbi təlimlərdir. Hərbi gücü nümayiş etdirməklə danışıqlarda müəyyən üstünlük qazanmaq mümkündür". Bununla belə, hərbi ekspert güman etmir ki, Qarabağ müharibəsi başlayacağı təqdirdə İrəvan-Moskva koalisiyasına qarşı Bakı-Ankara koalisiyası üz-üzə dayanacaq: "Müharibə olsa, açıq formada nə Rusiya, nə də Türkiyə münaqişəyə qoşulmayacaq və bir-birini savaşa cəlb etməyəcəklər. Amma sözsüz ki, hər bir dövlət imkan daxilində yardım edəcək".

**Politoloq Zəfər Quliyev isə hazırda bütün regionda genişmiqyaslı hərbi təlimlərin getməsinə diqqət çəkdi:** "Bu gün Rusiya sanki Üçüncü Dünya müharibəsinə hazırlaşır. Rusiya özü etiraf edir ki, bu cür genişmiqyaslı təlimlər keçirməyiblər. Eyni zamanda Qara dənizdə NATO ilə Ukraynanın birgə təlimləri keçirilir. Sentyabrın sonlarında da Qərbi Ukraynada NATO-nun hərbi təlimlərinin keçirilməsi nəzərdə tutulub. Yəni sanki bütün region ölkələri nəyəsə hazırlaşır. Reallıq budur ki, ümumi təhlükələr azalmır, artır. Bu, tək Rusiya-Ukrayna qarşıdurması ilə bağlı deyil, eyni zamanda Yaxın Şərqdə gedən proseslər, Amerikanın İŞİD-ə qarşı artıq müharibə elan etməsi şəraitində Türkiyə və Azərbaycan bu təhlükələr qarşısında öz hərbi qüvvələrini sınaqdan keçirməlidirlər". **Politoloqa görə, bu ölkələrin bir yerdə hərbi təlim keçirməsi onun da göstəricisidir ki, bu dövlətlər təhlükələr yaranan zaman bir yerdə hərəkət etmək niyyətindədirlər:** "Əslində Türkiyə ilə Azərbaycanın strateji müttəfiqliyi ilə bağlı imzalanmış sazişlər də buna imkan yaradır. Türkiyə-Azərbaycan genişmiqyaslı hərbi təlimləri əslində bu təhlükələrlə bağlıdır. Azərbaycanın onsuz da Qarabağ problemi kimi ciddi problemi var, eyni zamanda yeni problemlər də yaradılır. Azərbaycanın da yeganə etibarlı müttəfiqi Türkiyədir. Türkiyə və Azərbaycan tək təlimlərlə kifayətlənməməli və ümumiyyətlə, əməkdaşlığı genişləndirməlidir. Ola bilər ki, hətta iki ölkənin hərbi sahədə əməkdaşlığına Gürcüstan da daha fəal formada qoşulsun". **Z.Quliyev şübhə etmir ki, işğal altındakı torpaqlarımızın azad olunmasında da Türkiyə faktoru əsas olacaq:** "Ərazilərimizin işğaldan azad olunması hər an gündəmə gələ bilər. Ona görə ki, çox dinamik proseslər gedir. Eyni zamanda Rusiyanın özündən də bizə qarşı təhlükələr yarana bilər. Üstəlik də Ermənistan-Türkiyə münasibətlərində də uydurma "soyqırım"ın 100 illiyi ilə bağlı gərginlik get-gedə arta bilər. Belə bir kontekstdə Azərbaycan və Türkiyə hərbi əməkdaşlığı sürətlə inkişaf etməlidir. Bakı bu məsələlərdə məhz Ankaraya güvənə bilər".

Bu arada diqqətçəkən başqa məsələ də var. Belə ki, Moskva Ermənistanda narahatlıq doğuran prosesi, Azərbaycana silah satışını davam etdirir. Məlumata görə, Rusiya 100 ədəd "T-90S" tankının Azərbaycana göndərilməsini 2015-ci ilin əvvəlində başa çatdıracaq.

**Bu barədə Azərbaycanda keçirilən "ADEX-2014" sərgisində "Rosoboroneksport"un baş direktorunun məsləhətçisi, nümayəndə heyətinin rəhbəri Esen Topoyev deyib. (Virtualaz.org) Hərbi-texniki əməkdaşlıq üzrə Federal Xidmət rəhbərinin müavini Konstantin Birulin bundan əvvəl 100 tankın göndərilməsinin bu ilin aprelində başa çatacağını demiş, əlavə etmişdi ki, daha 100 belə tankın satışı mümkündür.** "Biz 2010-cu ildə bir sıra hərbi məhsullara dair böyük bir müqavilə imzalamışıq. Onların göndərilməsinin müddətləri müxtəlifdir. Bir hissəsini artıq bu il göndərmişik. Qalanlarının tədarükünü 2015-ci ildə başa çatdıracağıq. Ümumiyyətlə, tankların Azərbaycana göndərilməsi prosesini 2017-ci ilə kimi başa çatdırmağı nəzərdə tutmuşuq" - deyə E.Topoyev bildirib.

**A.İsazadə Rusiyanın Ermənistanla bərabər Azərbaycanı da silahlandırmasını aşağıdakı kimi şərh etdi:** "Hər iki tərəfə silah satmaq hər iki tərəfi özündən asılı etmək, digər tərəfdən də regionda hansısa tərəfin güclənməsinə və Moskvasız, təkbaşına çalışmasına imkan verməmək məqsədi daşıyır. Eyni zamanda bu, əks tərəfə siqnaldır ki, mənim təsir çərçivəmdən çıxsan, silah verməni azaldacağam, digər tərəfə isə çoxaldacağam".

Rəsmi İrəvan hələlik susur və narahatlıqla prosesləri izləyir. Görünən budur ki, prezidentlərin Paris görüşü ərəfəsində Ermənistan çıxılmazla üzbəüz qalıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Hakimiyyətlər kimi düşünür?

**Hüseynbala SƏLİMOV**

**"Mənim ölkəm dəli olub" deyə oxuyan Andrey Makareviçin ardınca bir daha Rusiya siyasətçilərinin qarasınca deyinmək fikrindən uzağam.**

Elə bir məsələdən bəhs edəcəm ki, o, həm Rusiya üçün, həm də Azərbaycan üçün ortaq maraq kəsb edir.

Bu günlərdə Rusiya mətbuatında bir yazı sataşdı gözümə. Artıq bilmirəm ruslar bu məsələyə neçənci dəfə qayıdırlar, amma yazıdan belə məlum olurdu ki, ölkə özünün yeni hərbi doktrinası üzərində iş aparır. Belə anlaşılır ki, son illərdə yeni reallıqlar meydana çıxıb və həmin reallıqlar hərbi doktrinanı bir daha nəzərdən keçirməyi və onu yenidən işləməyi zəruri edir.

Xatırladım ki, hərbi doktrina haqqında maddə ilk dəfə bizim 1995-ci il konstitusiyamızda da əksini tapmışdı. Həmin maddədə deyilirdi ki, prezidentin təqdimatı ilə Milli Məclis ölkənin hərbi doktrinasını təsdiq edir. Amma o vaxt bu maddə uzun müddət yaddan çıxdı. Yalnız 2000-ci illərin ikinci yarısından sonra bir daha bu məsələyə qayıdıldı. Qərəz, nə başınızı ağrıdım, konstitusiyada təsbit olunandan təxminən on il sonra məsələ həllini tapdı.

Amma bizdə bütün belə sənədlərin bir ümumi cəhəti var: onları çalışırlar ki, deklarativ formada yazsınlar ki, necə deyərlər, nə şiş yansın, nə də kabab. Biz də həmişə düşünmüşük ki, real siyasət bütün deklarasiyalardan daha qəliz və daha mürəkkəbdir, ona görə də bu sənədlərin təhlilində bir o qədər də dərinə getməmişik...

Amma Rusiyanın öz sənədinə təkrar-təkrar qayıtması göstərir ki, sənədlər heç də həmişə sənəd qəbul etmək, daha bir deklarasiya yazmaq xatirinə edilmir və onlar real siyasəti əks etdirirlər.

Güman edirik ki, bu, bizimkilər üçün də bir təkan olar. Ən azı ona görə ki, reallıqlar tək Rusiya üçün dəyişmir, hamımız Yer adlı planetdə yaşayırıq. Elə bu səbəbdən də bəlkə bizə də bu məsələyə qayıtmaq məqsədəuyğundur...

Amma sözüm-məqsədim bunda da deyil. Mənə maraqlı görünən başqa detal oldu. Yazılardan belə məlum oldu ki, ruslar "ərəb baharları"nın, rəngli inqilabların Rusiyaya keçməsini də öz milli təhlükəsizlik maraqları üçün əsas təhdidlərdən biri kimi görürlər...

Bəli, burada mən necə deyərlər, barmağımı dişlədim. Fikirləşdim ki, əcəba, bu hakimiyyəti kimin təhlükəsizliyi daha çox narahat edir: özünün, yoxsa millətin və dövlətin?

Mən bu suala birmənalı cavab tapmadım. Çox güman ki, tapmayacam da. Ona görə ki, Andrey Makareviç "Mənim ölkəm dəli olub" deyəndə haqlıdırlar. Bircə düzəlişlə ki, avtoritar rejimlərin hamısı belədir, onlar xoflu olur və daim səksəkə içində vurnuxurlar.

Güman edirəm ki, bizimkilər də bu mənada rusiyalı həmkarlarından bir o qədər də fərqlənmirlər. Düzdür, hakimiyyətdəkilərin ruhi durumu haqda mənə hələ heç nə məlum deyil. Amma zənn edirəm ki, onları da ən çox qorxudan məhz elə bu "bahar"lar, rəngli inqilablardır...

Mənim avtoritar rejimlərə xüsusi münasibətim var. Həmişə düşünmüşəm ki, bu, rejimlərin ən hiyləgəridir. Özünüz baxın. Avtoritar rejimdə cəmiyyətin dolanışıq problemini onun öz öhdəsinə buraxırlar. Bu rejimin işi insanları və xalqları güdmək, onların düşüncəsinə hakim olmaq, ona nəzarət etməkdir. Bu rejimdə gündə bir qadağa, bir yasaq fikirləşirlər ki, insanlar onlar üçün cızılan sərhədlərdən kənara çıxmasınlar...

Ona görə də Rusiya haqqında yazılanlar mənə qəribə gəlmədi. Amma mən bu ölkə haqqında bir az da dərinliyə gedərdim. Rusiya təkcə avtoritar ölkə deyil, o, sözün bütün mənalarında avtoritet üzərində qurulan ölkədir.

Əvvəllər hakimiyyətlər haqqında M.Veberin təsnifatından mətbuatda çox yazırdılar. O vaxt üç yazıdan ikisi xarizmatik, ənənəvi və rasional-leqal rejim, hakimiyyət haqqında düşüncələrdən ibarət idi.

Mənim bir daha bu mövzuya qayıtmağım Rusiyadakı hakimiyyətin mahiyyətini vurğulamaq istəyilə bağlıdır. Rusiyada indi xarizmatik üsul-idarə və hakimiyyət qüvvədədir. Hər şey bir nəfərin - V. Putinin xarizması üzərində qurulub.

Dövlət siyasətinin də əhəmiyyətli hissəsi bu xarizmanı qidalandırmağa yönəlib. Ona görə də neoimperializm az qala rəsmi dövlət və hakimiyyət siyasətinə çevrilib. V.Putin də özünü prezident kimi deyil, lap imperator kimi aparır.

Burada A.Makareviçə haqq qazandırmayasan, axı, nə edəsən?..

# Məhkəmə Seymur Həzini həbsdə saxladı

## Jurnalist barəsində seçilmiş həbs-qətimkan tədbiri dəyişdirilməyib

**Sentyabrın 12-də Sumqayıt Apelyasiya Məhkəməsində "Azadlıq" qəzetinin şöbə müdiri, "Azərbaycan saatı" proqramının aparıcısı, AXCP fəalı Seymur Həzinin apelyasiya şikayətinə baxılıb.**



Seymur Həzi

Məhkəmə prosesi qapalı keçirilib, apelyasiya şikayəti təmin olunmayıb.

Abşeron Rayon Məhkəməsinin qərarı qüvvədə saxlanılıb. Bununla da Seymur Həzinin barəsində seçilmiş həbs-qətimkan tədbiri dəyişdirilməyib.

Xatırladaq ki, avqustun 29-da Abşeron rayonunun Ceyranbatan qəsəbəsində Seymur Həzinin Bakı şəhər sakini Məhərrəm Həsənovla davası düşüb. Abşeron Rayon Polis Şöbəsi və Abşeron Rayon Prokurorluğunun birgə məlumatına görə, Seymur Həzi Məhərrəm Həsənovun başına su şüşəsi ilə zərbə endirib, yumruq və təpiklə sifət nahiyəsinə vuraraq ona bədən xəsarətləri yetirib.

Abşeron Rayon Polis Şöbəsinin istintaq bölməsində Seymur Həziyə Cinayət Məcəlləsinin 221.3-cü (Silah qismində istifadə edilən əşyaları tətbiq etməklə xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Avqustun 30-da isə barəsində həbs-qətimkan tədbiri seçilib.

Aparılmış istintaqla Məhərrəm Həsənovun Seymur Həziyə yumruqla xəsarətlər yetirdiyi bilinib. Məhərrəm Həsənova Cinayət Məcəlləsinin 221.1-ci (Xuliqanlıq) maddəsində nəzərdə tutulan ittiham elan edilib, barəsində rayon məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

221.1-ci maddəyə əsasən, Məhərrəm Həsənova üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə cəzası düşür.

Seymur Həzinin ittiham olunduğu 221.3-cü maddənin sanksiyası isə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmədir.

32 yaşlı Seymur Həzi BDU-nun şərqşünaslıq fakültəsini bitirib, AMEA-nın Fəlsəfə İnstitutunun aspiranturasında təhsil alıb. 2000-ci ildən AXCP-nin üzvüdür.

## Şahvələd Çobanoğlu prokurorluqda dindirilib



Şahvələd Çobanoğlu

**Sentyabrın 11-də jurnalist Şahvələd Çobanoğlu həbsdə olan hüquq müdafiəçisi Rəsul Cəfərovun işi ilə bağlı istintaqa çağırılıb. "Azadliq.info"ya danışan jurnalist Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində ifadə verib: "Ötən ilin noyabrında Rəsul bəyin layihəsi üzrə film festivalı keçirilib.**

Müsavat Partiyasının Bakıdakı mərkəzi qərargahında keçirilən festivalın bir günü filmlərdən sonrakı debatların moderatoru olmuşam, buna görə 100 manat xidmət haqqı ödənilib mənə. Müqavilə, qəbz, akt - bütün sənədlər yerində. Tədbir də gerçəkdən olub və iştirakçılar xatırlayır. Hər şey düz gəlir. Elə bu da Rəsul bəyin dürüstlüyünün sübutu idi. İmzamı, pulu aldığımı təsdiq etdim. Rəsul bəylə eyni yolda, eyni əqidədə olduğumu bəyan etdim".

**Şahvələd Çobanoğlu deyir ki, ekspertizaya vermək üçün ondan imza nümunəsi alıblar:** " Bizim heç bir problemimiz yoxdur, imzamıza da, əməllərimizə də arxayınıq. Sual başqadır. Ağır cinayət budurmu? 100 manatı bir tərəf verdiyini, digər tərəf aldığını bəyan edirsə, cinayət bunun harasındadır?"

Rəsul Cəfərov avqustun 2-də həbs olunub. Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi ona qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma ittihamları irəli sürüb. Nəsimi Rayon Məhkəməsinin qərarı ilə Rəsul Cəfərov barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib.

# BDU-dan həbs olunan müəllimlə bağlı açıqlama

**Xəbər verdiyimiz kimi, BDU-nun müəllimi Kamran Əsədov həbs olunub. "Qafqazinfo" bununla bağlı BDU-nun mövqeyini öyrənib. BDU-nun mətbuat xidmətinin rəhbəri Pərvanə İbrahimova açıqlamasında da bildirib ki, Kamran Əsədov əvvəllər universitetdə saat hesabı dərs keçsə də, heç vaxt ştatlı işçi olmayıb. Onun sözlərinə görə, həmin müəllimə bu il universitetdə, ümumiyyətlə, dərs yükü verilməyib.**




Kamran Əsədov

Xatırladaq ki , prokurorluğun yaydığı məlumatda qeyd edilir ki , Kamran Əsədov Bakı şəhər sakinini Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul etdirməyi vəd edərək ondan 3000 manat pul tələb edib və cinayət başında yaxalanaraq haqqında Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə cinayət işi açılıb.

Maraqlıdır ki, Kamran Əsədovun tələbələri onun facebook həsabında hadisəyə üzüldüklərini və inana bilmədiklərini bildiriblər.



# İcra hakimiyyətinin şöbə müdiri həbs olundu

**Abşeron Rayon İcra Hakimiyyətinin tikinti şöbəsinin rəisi Seymur Məmmədov Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi əməkdaşları tərəfindən saxlanılıb.**

"Qafqazinfo" aznews.az-a istinadən xəbər verir ki, vətəndaşların şikayəti əsasında idarə əməkdaşları tərəfindən əməliyyat keçirilib və o, həbs edilib.

Məlum olub ki, Seymur Məmmədov tikinti aparmağa icazə vermək üçün vətəndaşlardan 2000 manat, daha sonra isə 1000 manat tələb edib.

Məlumatı Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq şöbəsinin müdiri Akif Əliyev qismən təsdiqləyib. O, Seymur Məmmədovun işdən kənarlaşdırıldığını və bunun rəhbərliyin kadr islahatı olduğunu bildirib: "Onun həbsi ilə bağlı heç nə deyə bilmərəm. Seymur Məmmədov işdən azad olunub. Amma onun hansı səbəbdən işdən çıxarıldığını deyə bilmərəm. Yəqin ki, bu, rəhbərliyin kadr islahatıdır".

# Beynəlxalq axtarışda olan azərbaycanlı Rusiyada tutuldu

**İki ildən çoxdur, beynəlxalq axtarışda olan azərbaycanlı Xakasiyada saxlanılıb. Rusiya Daxili İşlər Nazirliyinin Xakasiya Respublikası üzrə idarəsinin yaydığı məlumata görə, 1989-cu il təvəllüdlü bu şəxs 2012-ci ilin iyulunda Bakıda xüsusilə ağır cinayət törədib. Onunla haqqında cinayət işi başlanılıb. Cinayətkar hüquq-mühafizə orqanlarından gizləndiyi üçün haqqında beynəlxalq axtarış elan edilib.**

Bir neçə gün əvvəl isə Beyskiy rayon istintaq əməliyyatçıları axtarışda olan şəxsin Xakasiyada ola biləcəyi ilə bağlı məlumat alıblar. OMON əməliyyatçıları ilə birlikdə onlar Dmitrievka kəndinə gəliblər və həmin şəxsin qaçma cəhdlərinə baxmayaraq onu saxlamağa müvəffəq olublar.

APA TV-nin xəbərinə görə, hazırda həmin şəxs Abakan istintaq təcridxanasında saxlanılır. Onun Azərbaycana ekstradisiyası məsələsi həll olunur.

# İncəsənət Universitetinin iki prorektoru işdən çıxarıldı

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bir neçə vəzifəli şəxsi işdən azad olunub. "Mediaforum" saytının məlumatına görə, rektor Fərəh Əliyevanın əmrinə əsasən, Maral Manafova elm və yaradıcılıq işləri üzrə prorektor vəzifəsindən, Həmid Məhərrəmov isə inzibati təsərrüfat işləri üzrə prorektor vəzifəsindən çıxarılıb.**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti muzeyinin direktoru və universitetin kulturologiya kafedrasının müdiri İlqar Hüseynov, rejissor sənəti fakültəsinin dekanı Xaləddin Sofiyev və kadrlar şöbəsinin müdiri Sədaqət Əlixanova da tutduqları vəzifələrdən azad olunublar.




Adıçəkilən şəxslər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim kimi fəaliyyətlərini davam etdirəcəklər.

Vakant qalan yerlərə hələlik yeni təyinatlar olmayıb.

Fərəh Əliyeva bu il mayın 2-dən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorudur.

YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014

**2015-ci il parlament seçkilərinə təxminən bir il qalır. Azərbaycanın müxalifət partiyalarının seçkiyə hazırlıq istiqamətində hansısa addımlar atması isə müşahidə edilmir.**
**Bu mövzuda fikirlərini bizimlə bölüşən ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, müxalifət seçkiyə indidən hazırlaşmalıdır, ilk addım kimi səmimi birlik formalaşdırılmalıdır. Təəssüf ki, Azərbaycan müxalifətinin ümumi taktikası və strategiyası yanlışdır:**

# ADP sədrindən Əli Kərimliyə sərt ittihamlar

## Sərdar Cəlaloğlu: "Əli Kərimlidən soruşsunlar ki, sən kimin harasından yapışıb parlamentə düşdün"



"1993-cü ildən indiyə qədər seçilən taktikanın yanlış olduğu artıq bəllidir. Birincisi, dünya dəyişib, biz siyasətimizi dəyişə bilmirik. Azərbaycan müxalifətinin böyük hissəsi siyasi qərarlarında daha çox emosional çıxış edir. Beş-on nəfər radikal insan var ki, müxalifət onların ruhunu oxşayan qərarları verməyi üstün tutur, nəinki əhalinin böyük əksəriyyətinin qəbul edəcəyi şəkildə qərarlar qəbul olunur. O cümlədən də seçki kampaniyalarını vaxt baxımından düzgün dəyərləndirə bilmirik. İndi müxalifət birləşməlidir, ən azından gələnilki parlament seçkilərində müxalifət bir-birinə alternativ olmamalıdır. İndidən müxalifətin birliyini cəmiyyətə təqdim eləməliyik".

**S.Cəlaloğlu 2005-ci ildə "Azadlıq" blokunun seçkidə böyük nailiyyət əldə elədiyini xatırlatdı:** "İndi də səmimi birlik yaradıb onu xalqa təqdim etmək lazımdır ki, 2015-ci ilin parlament seçkilərində xalq hansı bloka səs verəcəyini, bu blokda kimlərin olduğunu indidən bilsin. Çox təəssüf ki, bu məsələləri qaldıranda, fikirlərini bu şəkildə ifadə edəndə bir dəstə müxalifətçinin hücum kampaniyası başlayır. Dərhal səni hakimiyyətin sifarişi ilə danışmaqda şərləyirlər. Bu cür şərçilərin beyni o qədər xəstələnib ki, müxalifətin xeyiri üçün səslənən fikirləri də tərsinə başa düşürlər. Onlar sanki fərqində deyillər ki, parlament seçkilərinə hazırlıq üçün bir il çox az vaxtdır. Xüsusən müxalifətin maliyyə imkanlarının olmadığı bir vaxtda. Təəssüf ki, biz vaxtı pula çevirə bilmirik. Ona görə də həmişə geri qalırıq".

**"Siz birlik çağırışları edirsiniz və müxalifətin bir cinahından, konkret olaraq AXCP-nin bir sıra üzvləri tərəfindən kəskin ittihamlara məruz qalırsınız. İttihamlardan biri belədir ki, Sərdar Cəlaloğlu 2015-ci ildə parlamentə İqbal Ağazadənin arxasından yapışaraq düşmək istəyir. Bu ittihamlara münasibətiniz necədir" sualına ADP sədri belə cavab verdi:** "Onların liderləri başda Əli Kərimli olmaqla, 1995 və 2000-ci ildə parlamentə düşüblər. Kimin harasından yapışıb gedib düşüblər özləri daha yaxşı bilirlər. Bunlar öz təcrübələrindən çıxış edib belə düşünürlər ki, başqaları da yəqin bu yolla gedir. Getsinlər Əli Kərimlidən soruşsunlar ki, sən kimin harasından yapışıb parlamentə düşdün? Ondan sonra baxsınlar görsünlər ki, Sərdar Cəlaloğlu onların dediyi yolu gedən adama oxşayırmı. Onlar yuxularını danışırlar, nağıl yazırlar ki, guya Sərdar Cəlaloğlu parlamentə filan cür düşmək istəyir. Biz isə faktlara əsaslanıb danışırıq. Onların öz liderlərinin iki dəfə hansı yolla parlamentə düşdüyü bəllidir. Zəhmət çəkib bu barədə danışsınlar. Mən iki dəfə parlament seçkisinin qalibi olmuşam, lakin məni parlamentə buraxmayıblar. İkisində də Avropa Məhkəməsi mənim haqlı olduğumuzu təsdiq edib. Sual edirəm ki, Əli Kərimlini niyə parlamentə buraxıblar? Əgər sən həqiqətən də hakimiyyətin rəqibisənsə, üzdə görsəndiyi kimi radikalsansa, nə əcəb səni parlamentə buraxdılar? Əgər sən güclüsənsə, hakimiyyət sənin gücündən qorxub səni parlamentə buraxıbsa, nə əcəb sənə pasport vermirlər? Elçibəy Bakıya buraxılmadığı bir vaxtda sən necə oldu ki, parlamentə buraxıldın?"

**S.Cəlaloğlu onu da bildirdi ki, Azərbaycan müxalifətinin indiyə qədər parlamentdə səsi eşidiləcək səviyyədə təmsil olunmasının qarşısını hakimiyyətlə yanaşı, AXCP və onun sədri Əli Kərimli alıb. Məhz onlar tədrici demokratiyanın Azərbaycanda reallaşmasının qarşısını kəsiblər:** "Fazalı demokratiyanın mahiyyəti odur ki, inqilabla yox, iqtidarla müxalifətin razılaşdığı bir ssenari üzrə ölkədə müəyyən bir demokratikləşmə həyata keçirilsin. 2005-ci ildə beynəlxalq birlik tərəfindən müxalifətə məhz bu təklif edilmişdi. Qərb istəyirdi ki, əvvəlcə müxalifət parlamentdə fraksiya şəklində təmsil olunsun, Azərbaycanda bir siyasi mədəniyyət formalaşsın, iqtidar-müxalifət münasibətləri küçələrdə yox, parlament divarları arasında çözülsün və beləliklə də Azərbaycanda qansız-qadasız, tədrici demokratik dəyişikliklər, islahatlar reallaşsın. ATƏT-in müşahidə missiyasının rəhbəri bizə təklif eləmişdi ki, 35 nəfər müxalifətdən, 35 nəfər hakimiyyət partiyasından deputat parlamentdə təmsil olunsun, qalan 55 deputat yerinə isə kim istəyir namizədliyini irəli sürsün və seçki mübarizəsi ilə həmin yerlərin sahibləri müəyyənləşsin. Bu təklif bizə veriləndə Əli Kərimli dedi ki, biz qəbul etmirik, çünki biz ən azı 70 deputat yerini əldə edəcəyik. Təklifi irəli sürən tərəf bundan sonra dedi ki, öz işinizdir gedin əldə edə bilirsinizsə edin. Nəticə isə bəllidir-2005-ci il parlament seçkilərində müxalifətdən 4-5 nəfər parlamentə düşə bildi. Qərblilərin təklif etdiyi variant Azərbaycanda tədrici dəyişikliklər üçün normal variant idi. Əli Kərimli bu variantın ölkədə reallaşdırılmasına imkan vermədi. Müsavat Partiyasının başqanı İsa Qəmbər isə qaragüruh dəstənin hücumlarından, ittihamlarından, şərləmələrindən ehtiyatlanıb Əli Kərimlinin mövqeyi əleyhinə getmədi. Beləliklə, faktiki olaraq müxalifət fazalı demokratiyadan imtina elədi. Qərb bundan sonra müxalifətdən belə demək mümkündürsə əlini üzdü. Nəticə etibarilə Azərbaycan müxalifəti gəlib indiki duruma düşdü".

S.Cəlaloğlu bəyan etdi ki, o bu gün də Azərbaycanda demokratiyanın alternativini görmür. Müxalifət iqtidarla danışıqlar aparmalıdır, razılaşmalara gəlinməlidir, tədrici demokratiyaya keçid yolu seçilməlidir.

❑ **Etibar SEYİDAĞA**

---

**Ölkənin siyasi həyatında təlatümlərə səbəb olacaq ciddi proseslər baş vermir. İqtidar siyasi rəqiblərini həbs etməklə müxalifəti sıradan çıxartmaqda israrlı görünür. Müxalifət baş verənləri müşahidə edir və bəyanat verir. Beynəlxalq təşkilatlar proseslərdən "narahat" olduqlarını dilə gətirirlər. Cəmiyyəti isə müxalifətçilərin həbsindən daha çox müğənni Maral Tahirqızının yeni qalmaqalları cəlb edir.**

**Azər RƏŞİDOĞLU**



# İqtidar və müxalifətin gizli gündəmi

Lakin baş verənlərin alt qatında daha bir nəsnə aydın olur - hamı 2015-ci ildə keçiriləcək parlament seçkilərinə hazırlaşır.

Kənar baxışla görünən budur ki, istər iqtidar, istərsə də müxalifət qarşılarına konkret məqsədlər qoyublar. Hakimiyyət anlayır ki, sərt idarəçiliyi sona qədər nümayiş etdirə bilməyəcək. Beynəlxalq təzyiqlər hakimiyyəti yumşalmağa sövq edə bilər. İqtidar əvvəl-axır demokratik açılımla çıxış etməyə məhkumdur. Digər tərəfdən, iqtidar öz dəhlizlərini odioz fiqurlardan təmizləməlidir. Bu baxımdan, siyasi hakimiyyət mövcud siyasi vitrini əsaslı dərəcədə dəyişmək niyyətindədir.

Görünən budur ki, iqtidar müxalifəti, mətbuatı, qeyri-hökumət təşkilatlarını, eyni zamanda uzun illərdən bəri eyni postu tutan məmurları sıradan çıxartmağı, siyasi iddiaları günü-gündən artan YAP rəhbərliyini dövlət vəzifələrinə gətirməyi planlaşdırır.

Müxalifət isə növbəti parlament seçkilərinə qədər yeni seçki blokları yaratmaq, Qərbin dəstəyi ilə Milli Məclisdə fraksiya kimi təmsil olunmağı hədəf seçib.

Hər iki düşərgənin niyyətləri "ən yaxşı yenilik unudulan köhnəlikdir" prinsipinə uyğun həyata keçirilir.

Ortada iqtidar və müxalifətin niyyətləri mövcuddur. "Bunlar həyata keçəcəkmi" sualı isə Azərbaycanın ətrafında və daxilində baş verənlərdən asılı olacaq.

Prosesləri dəyişmək gücündə olan xalq isə ümumiyyətlə siyasi proseslərdən uzaqlaşıb. Artıq nə kütləvi həbslər, nə porno qalmaqalları, nə aparıcı partiyadakı sədr dəyişikliyi geniş ictimaiyyəti maraqlandırmır. Odur ki, istər iqtidarın demokratik açılımı, istərsə də müxalifətin fraksiya istəyi layihə eskizi kimi qəbul edilə bilər.

Müxalifətin geniş birliyinə nail olmaq problematik görünür. Aparıcı siyasi partiyaların artıq bir yerdə olması inandırıcı görünmür. Digər tərəfdən, proporsional seçki sisteminin ləğvi nəticəsində siyasi partiyaların seçkidə iştirakı xeyli dərəcədə çətinləşir. Düzdür, müxalifət seçkilər öncəsi fraksiyalar, seçki blokları yarada bilər.

Lakin qarşıdan gələn seçkidə iqtidar ictimai rəydə çaşqınlıq yaratmaq üçün bir güclü müxalifət bloku əvəzinə çoxsaylı blokların yaradılmasında maraqlı ola bilər.

Ən acınacaqlı hal isə ondan ibarətdir ki, Azərbaycan cəmiyyəti bu gün çoxpartiyalılığı və çoxblokluğu həzm edə bilmir. Ona görə də blokların sayı nə qədər çox olsa, bir o qədər də az seçici seçkilərdə iştirak edəcək.

İstisna deyil ki, seçkilərdə fraksiya şəklində yeni siyasi qüvvələr də iştirak edə bilər. Lakin 3-cü qüvvə kimi ortaya çıxıb, qarşıdurmadan bezmiş seçicilərin səsini qazanmaq istəyənlərin də seçkilərdə uğur qazana biləcəyi problemli görünür. Çünki bu gün barışdırıcı mövqedən çıxış edən insanlara nə iqtidarın, nə də müxalifətin münasibəti yaxşı deyil. Qarşıdurma düşmənçilik müstəvisinə keçdiyi üçün belələrini cəmiyyətin özü də hələ ki, həzm edə bilmir

Ən optimal yol kimi konstitusiya islahatlarının aparılması, proporsional seçki sisteminin bərpasına nail olmaqdır.

Getdikcə daha da sərtləşdirilən qanunlarla mübarizə aparmaq müxalifətə böyük uğur vəd etmir. Konstitusiya islahatlarının aparılması beynəlxalq təşkilatların da tələb etdiyi məsələdir. Odur ki, müxalifətin qanunverici islahat zərfini ictimaiyyətə və hakimiyyətə təqdim etməsinin zamanıdır...

YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014

**Ötən həftə İsmayıllıdan Suriyaya gedən iki ailə haqqında sensasion xəbərlər yayıldı. Xəbər portallarında gedən məlumatlarda qeyd olunurdu ki, güləş üzrə ölkə çempionu olmuş Rəşad Baxşəliyev və bərbər işləmiş Rahid adlı şəxslər ailəsi ilə birlikdə Türkiyəyə, oradan isə sərhədi keçib Suriyaya gediblər.**






# İsmayıllıdan Suriyaya vəhhabi ailələri kim göndərib? - təfsilat

## "Yeni Müsavat" döyüşlərdə öldürüldüyü deyilən güləşçimiz Rəşad Baxşəliyev və bərbər Rahid haqqında iddiaları araşdırıb; anası oğlunun Türkiyədə işlədiyini, camaat Suriyaya getdiyini deyir; rayondan İŞİD-ə qoşulanların sayı artır

Məlumatlarda iddia olunurdu ki, onların hər ikisi öldürülüb, ailələri başsız qalıb. Daha sonra başqa bir xəbərdə Suriyadan İsmayıllı sakini olan qadının yaxınlarına zəng edərək imdad dilədiyi bildirilirdi. Deyilənə görə, qadın telefon zəngində onunla birgə olan həmyerlisi ilə tək qaldığını, ərlərinin harada olduğunu bilmədiklərini söyləyib.

***

Sentyabrın 11-də İsmayıllıya yollanıb, iki vəhhabi ailəsinin Suriyaya getməsi və onların taleyini araşdırmağa çalışdıq. Rayonda olarkən söhbətləşdiyimiz İsmayıllı sakinləri gənclərin öldürülməsi xəbərini təsdiqlədilər.

Camaat arasında yayılan söz-söhbətə görə, onların ölüm faktı gizlədilir.

Xüsusilə də yaxınları R.Baxşəliyevin taleyindən anasına xəbər vermirlər. Güləşçinin anası Mirvari xanım indiyə qədər oğlunun Türkiyədə olduğunu güman edir. Hətta azvision.az-a deyib ki, oğlu ilə danışıb, Türkiyədə işləməyə gedib, onunla birlikdə 4 nəfər olub.

M.Baxşəliyeva onlardan üçünün evli, birinin subay olduğunu öyrənib. Sələfinin anası bildirib ki, oğlu ailəsini dolandıra bilmirdi və işləməyə gedib. İsmayıllıya çatanda Mirvari xanıma zəng edib, görüşmək istəyimizi çatdırsaq da, qəti şəkildə razı olmadı. O, oğlu barəsində deyilənləri iftira adlandırdı. R. Baxşəliyevin anası əsəbi şəkildə cavab verərək, onu daha narahat etməməyi söyləyib, telefonu qapatdı. Bununla belə, rayonda köçkünlərin təhsil aldığı Xankəndi məktəbində bədən tərbiyəsi müəllimi olmuş güləşçinin Suriyaya getdiyini təhsil ocağının direktoru Rauf Adıgözəlov da təsdiqləyib.









O, həyat yoldaşı və körpəsi ilə yola düşüb. R.Baxşəliyevlə birlikdə İsmayıllı Olimpiya İdman Kompleksində çalışan cüdo üzrə baş məşqçi Əkbər Şəfaqətov da onun Suriyaya getdiyini deyib. R.Baxşəliyev əslən Kəlbəcər rayonundandır. Bir neçə ildir ibadətlə məşğul olurdu.

Ortadakı müəmma isə anasının oğlunun Türkiyədə sağ, rayonda insanların isə Suriyada ölü olduğunu deməsidir. Eyni zamanda bu regionda bərbər işləmiş Rahidin də Suriyadakı döyüşlərdə öldüyü iddia edilir.

İsmayıllıda danışırlar ki, vəhhabilərin çox olduğu yerlərdən biri bu bölgədir. Onların sözlərinə görə, bu ilin fevralında rayonun Mican kəndində vəhhabilərin toplaşdığı məscidin bağlanması da prosesin bir tərkib hissəsidir.

Yerli sakinlərin narazılığı əsasında ibadət evinin müvəqqəti qapadılması qənaətinə gəlinib. Kənd sakinləri bildiriblər ki, məscidə vəhhabilər yığışır və onların Suriyaya göndərilməsi də burada təlimatlandırılır. Məsciddə restavrasiya işləri həyata keçirilib.

Sakinlər deyirlər ki, İsmayıllıdan Suriyaya gedənlərin, İŞİD-ə qoşulanların sayı artır, amma konkret rəqəmlər açıqlanmır. Bu faktdan narahat olan rayon camaatı gənclərin təbliğatın qurbanı olduqlarını düşünürlər. Bizimlə söhbətləşən yerli sakinlər arasında belə iddialar da səsləndi ki, gənclərin Suriyaya göndərilməsində bəzi şəxslərin barmağı var. Hətta bir neçə il əvvəl İsmayıllıda radikal vəhhabilərə qarşı əməliyyat keçirilib, onlardan silah-sursat aşkarlanıb.

***

İsmayıllıda həm Suriyaya aileləri ilə gedən gənclərlə bağlı, həm rayonda görülən son işlər haqda rəsmi açıqlama almaq üçün rayon icra hakimiyyətinə müraciət etdik. RİH-dən "Yeni Müsavat"a Suriyaya gedənlər barəsində münasibət bildirilmədi.

**Əlavə olaraq rayonda həyata keçirilən yeniliklər haqda məlumat verildi.**

**RİH nümayəndəsi qeyd etdi ki, N.Səmədov küçəsində soyqırım abidəsi, İsmayıllı şəhidlərinə həsr edilən park, o cümlədən Günəşli parkı salınıb:** "Həmçinin 360 yerlik Qalınçaq, 80 yerlik Külüllü məktəbi və 40 yerlik Sumağallı bağçası tikilib. Bundan başqa, Göytəpə- Ruşan-Qalınçaq avtomobil yolu tikilərək istifadəyə verilib, Cülyan, Qubaxəlilli, Hacəhətəmli, Kürdmaşı, Talıstan və digər kəndlərdə artezian quyuları qazılıb, mərkəzdə bir çox küçələrə, binaların həyətlərinə, qəbiristanlığa gedən yola asfalt örtüyü vurulub. Yaşıl bazar tikilib, Axundov küçəsində 2 10 mərtəbəli binanın tikintisinə başlanıb".

**İcra nümayəndəsi qeyd etdi ki, yanvara qədər velosiped zavodu hazır olacaq, məlum hadisələrə görə yanan hotelin yerində tikilmiş yaşayış binası təhvil veriləcək:** "Rayon Mərkəzi Xəstəxanası açılışa hazırdır, rayon üçün su və kanalizasiya problemi var idi, artıq həll edilib. Prezidentin rayona səfərini gözləyirik, bir sıra yerlərin açılışını edəcək".

**❑ "Yeni Müsavat"ın Reportyor Qrupu, İsmayıllı**

# Toy və yas dəbdəbəsinə qoyulan qadağalara müxalifət nə deyir...

**Yas və toy mərasimlərində israfçılığın qarşısını almaq üçün müxtəlif təkliflər səslənməkdədir. Bu cür təkliflərdən birini illər öncə Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli səsləndirmişdi. Millət vəkili hələ bir neçə il əvvəl bu məsələni qabardaraq yas və toy mərasimlərinin tənzimlənməsinin vacibliyi fikrini önə çəkmişdi.**



**Gülağa Aslanlı:** "Bu məsələdə maarifləndirmə işinin aparılmasına böyük ehtiyac var"



**İqbal Ağazadə:** "Mən yas mərasimlərinin məscidlərdə keçirilməsinin tərəfdarıyam"



**Sərdar Cəlaloğlu:** "İnzibati qadağalar düzgün yol hesab edilə bilməz"

**H.Rəcəbli** təmtəraqlı toyların qarşısını ancaq nümunə yolu ilə almağın mümkünlüyünü vurğulayaraq bildirmişdi ki, varlı, vəzifəli insanlar Türkiyədəki və Avropadakı toy modellərini nümunə götürməlidir. O, yas mərasimlərinin keçirilməsi ilə bağlı da müəyyən qaydalar yazılmasını və Ali Dini Şuranın bunu təsdiq etməsini təklif etmişdi. Bütün bunlara baxmayaraq bu problem hələ də həllini tapmayıb.

**Yeni Azərbaycan Partiyası icra katibinin müavini, deputat Siyavuş Novruzov** da bugünlərdə açıqlama verərək bildirib ki, yas mərasimlərində israfçılığa son qoyulduqdan sonra toylara da müəyyən məhdudiyyətlər qoymaq lazımdır. "Dünya təcrübəsi var. Toy və yas mərasimləri ilə bağlı Tacikistan prezidentinin sərəncamı var. Məclisə nə qədər adam çağırıla, ən yüksək məbləğ neçə manat təşkil edə bilər və digər məqamlar müəyyənləşdirilib. Mən Böyük Britaniyada, Şotlandiyada mərasimlərdə iştirak etmişəm. Evlənənlərə hədiyyə almaq üçün xüsusi mağazalar var. Burada 20 funt-sterlinqdən 3 min funt-sterlinqə qədər dəyərdə hədiyyələr qoyulub, qonaq cibinə uyğun hədiyyə seçir, qəbzi evlənənlərə təqdim edirlər. İkincisi, kim nə yeyəcəksə, onu sifariş edir, daha bizdəki kimi 30 cür salat, 50 cür isti-soyuq yemək verilmir. Bizdə də misal çəkdiyim qaydada mərasim təşkil edilməli, kim nə yemək istəyirsə sifariş verməli, ona uyğun hədiyyəsi ilə birlikdə ödəniş etməlidir".

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi isə şadlıq evlərində israfçılığın qarşısının alınması üçün toy sahibləri ilə sahibkar arasında müqavilə bağlanması təklifi ilə çıxış edib. Mətbuata açıqlama verən **Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin texniki tənzimləmə və standartlaşdırma üzrə dövlət nəzarət xidmətinin şöbə rəisi Mənsim Babayev** israfçılığın və bəzi qanunsuz hərəkətlərin qarşısını almaq üçün belə bir müqaviləyə ehtiyac duyulduğunu deyib. Şadlıq evlərində aparılan yoxlamalarla bağlı son 7 ayın statistikası barədə məlumat verən M. Babayev qeyd edib ki, bu müddət ərzində ümumilikdə 75 restoranda yoxlamalar aparılıb ki, onların da 36-da standart şərtlərinin pozulduğu qeydə alınıb.

Maraqlıdır, müxalifət düşərgəsi yas və toylara müəyyən məhdudiyyətlərin qoyulması ilə bağlı nə düşünür? Onların da bu məsələ ilə bağlı hər hansı bir təklifi varmı?

**Müsavat Partiyasının başqan müavini Gülağa Aslanlı bu cür halların qarşısını maarifləndirmə yolu ilə almağın daha məqsədəuyğun olduğunu bildirdi:** "Yas və toy mərasimlərində müəyyən qadağaların olması ilə bağlı müxtəlif təkliflər var. Amma bu məsələnin inzibati üsullarla tənzimlənməsini və məclislərin dağıdılması ilə təmin olunmasını insan haqlarının və hüquqlarının pozulması kimi dəyərləndirirəm. Bu məsələdə maarifləndirmə işinin aparılmasına böyük ehtiyac var. Bu iş paralel aparılmalıdır. Çünki israfçılığa daha çox yas mərasimlərində deyil, toylarda yol verilir. Yaxın adamlarını itirmiş insanların beynində belə bir fikir formalaşıb ki, bəzən yas mərasiminə gələn insanlar ona görə yemək yeyirlər ki, hüzr sahibi də onlara baxıb yemək yeyə bilsin. Biz bu yaxınlarda Müsavat Partiyasının Şəmkir rayon təşkilatı sədrinin hüzrünə getmişdik. Məlum oldu ki, orada süfrəyə qəbul olunmuş normada halvanın və pendir-çörəyin qoyulmasının qarşısını almağa çalışırlar. Bu cür hallar tamamilə yolverilməzdir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə toylara məhdudiyyət qoyulmasının əleyhinə olduğunu dedi:** "Hərdən qəbirlərə elə başdaşları qoyurlar ki, bu qədim bir Azərbaycan misalını xatırladır: dədəmi öldürürəm ki, goruna and içim. Bu cür qəbir daşları qoyduranların əksəriyyəti ömründə atasının qəbrinin üstünə getməyənlər və yaxud da sağlığında onlara qiymət verməyənlər olur. Yas mərasimlərində də insan bilmir ki, ölüsünü dəfn etsin, yoxsa yemək hazırlasın. Stolun üzərində yeməklər yox, bir stəkan çay olar, vəssalam. Hesab edirəm ki, Azərbaycanın yas mərasimləri ilə bağlı yanaşmaları, düşüncələri dəyişilməlidir. Mən yas mərasimlərinin məscidlərdə keçirilməsinin tərəfdarıyam. Hətta ölü yumağa götürülürsə, insanlar elə məscidə yığılsınlar və oradan da getsinlər. Evi ölüxanaya, yas məclisi yerinə çevirməyin nə mənası var? Toylara isə hər hansı bir məhdudiyyət qoyulmasının əleyhinəyəm. Çünki toy insanın ən şad günüdür. Kim toyunu necə, hansı şəkildə istəyir keçirə, stolunun üstünə nə istəyir qoya bilər. Xoşu gəlməyən getməsin. İnsana "şad gününü bu cür keçir" demək olmaz".

**ADP sədri Sərdar Cəlaloğlu adət və ənənələri inzibati qaydada tənzimləməyin yolverilməz olduğunu dedi:** "Adət və ənənələri inzibati qaydada tənzimləmək yolverilməzdir. Çünki adət-ənənələri xalq özü formalaşdırır. Xalqın düzgün maarifləndirilməsi və tərbiyələndirilməsi lazımdır. Yas mərasimləri dini ayinlərlə icra olunduğuna görə yalnız dindarlar bu məsələ ilə bağlı təşəbbüs qaldıra bilərlər. Toy mərasimləri isə təbii ki, hakimiyyət tərəfindən xüsusi tənzimlənə bilər. Çünki toy mərasimlərinin keçirildiyi şadlıq evlərinin demək olar ki, hamısı hakimiyyətdəkilərin nəzarəti altındadır və onlara məxsusdur. Hakimiyyət məmurları öz toylarını və yas mərasimlərini çox təmtəraqla keçirirlər. Bu da pis nümunə kimi aşağı təbəqənin insanlarına sirayət edir. Ümumiyyətlə, din xadimləri yas ayinlərinin mahiyyətini izah etməli, peyğəmbərimizin (ə.s) dövründən bu günə kimi olan yas adət-ənənələrini öyrənməli və bunları icra etməlidir. Diqqət etsək görərik ki, bizim indi rastlaşdığımız bu adət-ənənələr sovet dövründən qalmadır. Bunları da aradan qaldırmaq lazımdır. Amma inzibati yol düzgün yol hesab edilə bilməz. İslam dini qəbirüstü abidələrin yaradılmasını qadağan edir. Toy mərasimlərinə gəlincə isə burada stolun üzərinə düzülən yeməklərdən gələn iy insanın başını ağrıdır. Həmçinin süfrəni o qədər doldururlar ki, insanın gözü doyur, yemək istəmir. Toylarımızı və yaslarımızı qaydaya salmağı televiziyalarda təbliğ etmək lazımdır".

❑ **Günel MANAFLI**

# Özünə sığmayan şəhər



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**Qızmar yay günləri başa çatdı. Amma bu şəhərdə yaşayanlar qızmardan çıxıb qaynara düşdü. Bütün şəhər tıxacda qalıb, saatlarla mənzil başına çatmaq üçün yollar arayır... Heç kim də bu tıxacdan qurtulmağın ən effektli yolunu dilə gətirmir...**

Əslində yaydan sonra payızda şəhərdə belə sıxlığın yaranmasının səbəbləri hamıya bəllidir - qızmar yaydan daldalananlar öz dədə-baba yurduna getmişdi, idi də geri dönürlər və Bakıda labirintə düşürlər...

Paytaxtda nə qədər əhali yaşayır? Rəsmi statistikaya inansaq, 2 milyondan çox deyil. Gözümüzlə gördüyümüz isə başqa qənaət yaradır - bu şəhər ölkə əhalisinin yarıdan çoxunun sığınacaq yerinə dönüb. Şəhərdə bu qədər tikilən göydələnlərdə kimlər yaşayır? Bakının ətraf qəsəbələri, kəndləri nə qədər böyüyüb? Son 10-15 ildə paytaxta belə kütləvi axının gerçək səbəbləri nədir? Bu suallara rəsmilər cavab vermir, çox vaxt gerçək mənzərəni danırlar, problemlər isə daha dramatik xarakter alır...

Xəritəni qarşınıza qoyun və diqqətlə baxın: Abşeron yarımadası üç tərəfdən dənizlə əhatə olunub. Yalnız qərb istiqamətinə giriş-çıxışı var. İki yol, şəhərə açılan iki qapı bu qədər insan, avtomobil axınına davam gətirmir.

Yadınızdadırmı, 2006-cı ildə şəhər təzə-təzə tıxaca düşəndə körpülərin, yol qovşaqlarının, keçidlərin tikintisinə start verildi. O vaxtdan bəri yeni salınan, genişləndirilən yollar, buna çəkilən xərc bütün əndazələri aşıb. Amma şəhərin ən böyük qayğısına çarə tapılmayıb. Daha bu qədər keçidin, körpünün tikintisi vəziyyəti dəyişəcəkmi?

Məmurların, ölkənin sükanı arxasında dayananların Bakıya olan "sevgisini" anlamaq olar. Dəbdəbəli saraylar, hotellər, əyləncə mərkəzləri onlara məxsusdur. Azərbaycanlı oliqarxların əsas gəlir mənbəyi də bu şəhərdədir. Adama elə gəlir havaya sovrulan bu qədər pul da o gəlir mənbələrini qorumağa xərclənir, bizim özəl qayğılarımız isə heç kimin yadına düşmür.

Heç kəsin dana bilməyəcəyi bir vəziyyət yaranıb: ölkənin maddi resurslarının 90-95 faizi Bakıda xərclənir. Mənəvi resurslardan düşən payı da elə buna görə müəyyən etmək olar. Faktiki olaraq Azərbaycan deyəndə yalnız Bakı yada düşür. Bölgələrdə isə insanlar ağır gün-güzərana boyun əyirlər.

Biz belə problemlə qarşılaşan ilk ölkə deyilik. Qonşumuz İranda paytaxt xaosundan qurtulmaq ətrafında ciddi müzakirələr aparılır. Artıq yeni paytaxt salınması zərurətə dönüb. Daha bir ölkə də düşdüyü dalandan çıxmaq üçün yollar arayır: Argentinada da paytaxtın ölkənin iç ərazilərinə köçürmək gündəmə gəlib. Bütün bunların nə qədər səmərəli olduğunu görmək üçün isə Qazaxıstan nümunəsi yetərlidir. İndi yeni paytaxt Astana dünyanı heyrətdə qoyan bir şəhərə dönüb.

Azərbaycan kimi bir ölkə üçün paytaxtı ölkənin iç bölgələrindən birinə köçürmək artıq qarşısı alınmaz bir zərurətdir. Yalnız bu yolla ölkəni Abşeron dalanından çıxarmaq olar.

Paytaxtın köçürülməsi çox qısa zamanda tamam fərqli mənzərə yaradacaq. İnfrastruktur şaxələnəcək, ölkədə kommunikasiya real tələblərə uyğunlaşacaq. Ən nəhayət, maliyyə resursları daha sərfəli istiqamətə yönələcək. Yeni paytaxtın ətrafındakı bölgələrdə həyatın necə dəyişəcəyini təsəvvür edirsinizmi?

Kimə sirdir ki, avtoritar rejimlər dəbdəbəli həyat sürür, bütün imtiyazlardan ən asan vasitələrlə bəhrələnirlər. Bəlkə də heç bir məmur ağlına belə gətirmir ki, illər boyu qurulanları qoyub hansısa kiçik şəhərdə yaşamaq olar. Amma tarixin hər kəsin boynuna qoyduğu missiya var. Kim onu vaxtında, məqamında yerinə yetirməsə, gələcək nəslin ittihamları ilə üz-üzə qalır...

Diqqət yetirin, bizim bu şəhərdə daha rahat yaşamağımız üçün nə qurulur, nə tikilirsə, bir müddət sonra ağır yükə dönür. Guya əhalinin qayğısına qalıb yeni avtobuslar alırlar. Yol yoxluğundan o da tıxaca düşür. Bütövlükdə şəhər təsərrüfatında sistemsizlik hökm sürür - bir həftə əvvəl salınan yolu bir həftə sonra dağıtmaq artıq ənənə şəkli alıb. Bircə yol göstərə bilərsinizmi ki, sizi mənzil başına yetirəcək. Əvəzində istənilən qədər maneələrlə qarşılaşacaqsınız...

Min dərdin bir dərmanı var - bu şəhər özünə sığmır. Paytaxt bu dalandan ölkənin içinə köçürülməlidir! Bu həm də strateji əhəmiyyət daşıyır.

**"Yeni Müsavat"ın ötən sayında Azərbaycan vətəndaşı, mərhum professor Qeybulla Qeybullayevin qızı Arzu Qeybullayevanın Türkiyə ermənilərinin media orqanı olan "Aqos" qəzetində işləməsi ilə bağlı məlumat verilib. Xatırladaq ki, "Aqos" erməni yalanlarının ən uğurlu təbliğat maşınlarından sayılır.**



# Azərbaycanlı jurnalistlər erməni mətbuatında çalışarmı? -sorğu

## Media əhlinin bu suala cavabı birmənalıdır - yox!..

Arzu Qeybullayeva modern.az-a müsahibəsində bildirib ki, onu bu addımına görə bəzən qınayanlar olur: "Amma bu o, demək deyil ki, mənim işim sırf kiminsə xoşuna gəlmirsə, onu atmalıyam... nə olursa-olsun işimizə davam etməliyik".

Bəs görəsən, Azərbaycanda Arzu Qeybullayeva ilə həmfikir olan həmkar varmı? Tanınmış qələm sahibləri erməni mətbu orqanlarında çalışmağa razı olarlarmı?

**APA.TV-də yayımlanan "Sosium" verilişinin aparıcısı, jurnalist Elnur Hidayətoğlu deyir ki, erməni mediasında çalışmaq, elə ermənilərə işləmək, onlardan biri olmaq deməkdir:** "Erməni mediasında çalışmaq, fikrimcə, satqınlıq və alçaqlıqdan başqa bir şey deyil. Bir jurnalist olmaqdan öncə sən bu ölkənin vətəndaşısan, erməni işğalı nəticəsində 20% torpağından hələ də məhrum olan, 1 milyon insanı didərgin yaşayan, yaşlısı, qadını, uşağı işğal zamanı vəhşilik görmüş, süngüdən keçmiş bir xalqın övladısan... Özümə söz vermişəm: nəinki erməni mətbuatında işləmək, hətta torpaqlarımız sülh yolu ilə qaytarılsa belə, ömrümün sonunadək hər hansı erməni ilə yoldaşlıq etsəm, onlarla yaxınlıq etsəm bu vətənin övladı deyiləm, ən şərəfsiz insan, satqın bir bəndə olaram. Mən, müharibənin ağrı-acısını görmüş, uşaqlığı tankın, topun böyründə keçən, yaralı əsgəri qucaqlayıb, onlarla gecələyən, onların bitini-birəsini, üstünün qanını evinə gətirən o uşaq, bu günün jurnalistiyəm. Ona görə də belə addımlara bu qədər aqressiv yanaşmam var və bu yanaşma heç vaxt dəyişməyəcək..."

**Qafqaz.info saytının redaktoru Günel Əbilova da suala yox cavabı verir:** "Birincisi, mən düşünmürəm ki, Ermənistanla bağlılığı olan mediada bir azərbaycanlının işləməsinə razı olsunlar. Əgər media sırf xəbərə xidmət etsəydi, mənim üçün Ermənistan da daxil olmaqla, hər hansı ölkədə işləmək problem olmazdı. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Ermənistan bizim üçün sıradan bir dövlət deyil. Bu baxımdan erməni mediasında işləyəcəyimə inanmıram. Bu elə bir mövzudur ki, çox danışmaq olar, amma nəticə olaraq bir fikrə gəlib çıxacaqsan. Ona görə də fikrimi qısa ifadə edirəm və yox deyirəm".

**"Yeni Müsavat" qəzetinin yazarı Aygün Muradxanlı da ermənilərlə hər hansı işbirliyinin əleyhinədir:** "Təbii ki, onlarla işləmərəm. Çünki faktiki olaraq bu dövlət mənim ölkəmlə müharibə şəraitindədir. Bu, heç bir çərçivəyə sığmayan hərəkətdir. Əgər hətta söhbət xalq diplomatiyası ilə bağlı bir məqamdan gedərsə, mən yenə də düşünərəm. Çünki ermənilər dəfələrlə sübut ediblər ki, nə xalq diplomatiyası, nə də məsələlərə hər hansı sivil yöndən yanaşma onlar üçün qəbuledilməzdir və heç bir halda buna əməl etmirlər. Buna görə də mən onlarla hər hansı işbirliyinə etiraz edərdim".

**"AzerFax" Agentliyinin baş redaktoru Nicat Dağlar isə deyir ki, hər bir jurnalist çalışdığı media orqanının ictimai-siyasi, sosial-iqtisadi, dini və digər ideoloji məsələlərdə əsas tutduğu təbliğat kursunun müəyyən mənada təəssübkeşidir:** "Bu baxımdan azərbaycanlı jurnalistin erməni qəzetində çalışmasını adi hal kimi qarşılaya bilmərəm. Qeybullayeva soyadlı xanım barədə oxuduğum xəbərlər onun kifayət qədər mükəmməl təhsil aldığını göstərir və məncə, o, nəinki Türkiyədə, istənilən Avropa ölkəsində özünə daha gəlirli iş yerləri də tapa bilərdi. Onun Avropada təhsil alaraq gəlib erməni qəzetinə sığınmasında şübhəli məqamlar axtaranları qınamaq olmaz. Mətbuatın yazdıqlarından belə məlum olur ki, həmin qəzet Azərbaycana qarşı təxribat xarakterli materiallar yayır, dövlətimizə qarşı qərəzli mövqe nümayiş etdirir. Zatən başqa münasibət də gözləməyə dəyməz. Məncə, ermənilərin qəzetində işləmək ermənilərə işləmək anlayışı ilə ekvivalentlik təşkil edir".

**Azxeber.com saytının baş direktoru Əfsələddin Ağalarov da sualımıza "yox" cavabı verir:** "Bəzən Qərb və ABŞ jurnalistikasının kosmopolit düşüncəli ziyalıları "jurnalistin və informasiyanın vətəni yoxdur" kimi fikirlər səsləndirir və bunun jurnalistika prinsiplərindən biri olduğunu aşılamağa çalışırlar. Ancaq bu cür fikirlər zamanla özünün əksini göstərir. Gəlin yaxın keçmişə nəzər salaq. ABŞ ordusunun İraqa girməsi xəbərini ABŞ mediası bir müddət sonra verdi. Burada maraqlı sual ortaya çıxır. Niyə ABŞ-ın özünü müstəqil adlandıran mediası həmin vaxt "jurnalistin və informasiyanın vətəni yoxdur" prinsipi ilə hərəkət etmədi? Axı özləri bu "prinsip"ləri dünyaya təbliğ edir və buna əməl etməyənləri antidemokrat adlandırırlar. Düşünürəm ki, hər bir şəxsin peşəsindən öncə, onun tutduğu vətəndaşlıq mövqeyi daha önəmlidir. Əgər öz məmləkətinin 20 faiz torpağının işğal altında olduğunu, bir milyondan çox həmvətəninin məcburi köçkün həyatı yaşadığını, xalqının başına ermənilər tərəfindən "Xocalı" soyqırımının gətirildiyini bilə-bilə düşmən mətbuatında işləməyi qəbul edirsənsə, o zaman sən nə azərbaycanlısan, nə vətəndaşsan, nə də jurnalist. Əgər hansısa üçüncü bir ölkədə fəaliyyət göstərən bir qəzet özünü "erməni qəzeti" kimi tanıdırsa və azərbaycanlı kimliyini unudan bir jurnalist gedib həmin qəzetdə çalışırsa, bizə ancaq həmin şəxsə tutduğu bu "şərəfli" yolda uğurlar arzu etmək qalır. Hər halda, heç bir bəhanə jurnalistə erməni mətbuatında işləməyə haqq qazandıra bilməz".

**Adının çəkilməsini istəməyən jurnalistlərdən biri isə A. Qeybullayeva ətrafında gedən söz-söhbətlərin əsassız olduğunu bildirir:** ""Aqos" hazırda münaqişələrin sülh yolu ilə tənzimlənməsi istiqamətində yazılar verir. Ötən il Xocalı ilə bağlı azərbaycanlıların da fikirləri dərc edilmişdi və hər kəs burada erməni vəhşiliyindən yazırdı. Arzunun əslən türk olmadığını qabartmaq isə etnik ayrı-seçkilik salmaqdır və bu doğru deyil".

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



YENİ MÜSAVAT
N 229 (5938) 13 sentyabr 2014

# Maştağadakı Psixiatriya Xəstəxanasında yer sıxlığı yaranıb



## Polisin qoruduğu müalicəxanada ruhi xəstələr üçün normal şərait yaradılsa da, buradan qaçış halları tez-tez baş verir; **baş həkim:** "Bu xəstəlik təsəvvür edildiyi qədər qorxulu deyil..."

**Xəbər verildiyi kimi, ötən gün iki ruhi xəstə Maştağa qəsəbəsindəki 1 saylı Ruhi-Əsəb Dispanserindən qaçıb və Heydər Əliyev adına Beynəlxalq Hava Limanının elektron mühafizə hasarını qanunsuz olaraq aşmağa cəhd edərkən tutulub. Araşdırma zamanı məlum olub ki, tutulan şəxslər dispanserindən qaçmış Lerik rayon sakini M.A. və Cəlilabad sakini R.M.-dir. Onlar polis tərəfindən adıçəkilən xəstəxanaya təhvil verilib.**

Belə hal ilk dəfə deyil ki, baş verir. Bəs ruhi xəstələrin müalicə aldığı xəstəxana necə mühafizə edilir? Xəstələr oradan qaçmağa necə müvəffəq olurlar? Dispanserdəki vəziyyəti öyrənmək üçün sözügedən ünvana getdik.

***

Xəstəxananın girişinə 4 nəfər polis nəzarət edir. Jurnalist olduğumuzu bilib bizi içəri buraxırlar. İlk baxışdan bura xalq arasında deyildi kimi, "dəlixana"nı yox, sadə bir yaşayış məhəlləsini xatırladır. Xəstəxananın həyətində irəlilədikcə qarşımızdan ruhi-əsəb xəstəsi olan insanlar keçir. Sakit baxışlarla bizi izləyən bu insanlar həyətdə təsərrüfat işləri ilə məşğul olurlar. Kimi su daşıyır, kimi oturacaqları boyayır, kimi isə sadəcə gəzir. Ətrafda tam səssizlikdir. Bəziləri yeni, bəziləri köhnə olan korpusların ətrafı yaşıllıqla əhatə olunub.

Bizi müşayiət edən tibb bacılarının sözlərinə görə, bu yaşıllıq, gül-çiçək, həyətdəki fəvvarə və sair əsəb xəstəliklərinin müalicəsinin bir yoludur. Bu səbəbdən xəstəxananın ərazisində süni göl yaradılıb, əvvəllər boz çöllük olan yerlərdə ağaclar əkilib. Köhnə xəstəxana binaları yeniləri ilə əvəz olunub. Tikinti işləri hazırda da davam edir.

Xəstəxanada müxtəlif yaş kateqoriyalarından olan insanlar ayrı-ayrı korpuslarda yerləşdirilib. Burada uşaqlar, yeniyetmələr, qocalar, qadınlar, kişilər, məcburi müalicə olunanlar, infeksion xəstələr, narkoloji müalicə alanlar fərqli korpuslarda yerləşir, birinin digərinə müdaxiləsinə yol verilmir.

**Xəstəxanadan iki nəfərin qaçması xəbərinə aydınlıq gətirən xəstəxananın baş həkimi Ağahəsən Rəsulov deyir ki, ruhi xəstələr xəstəxanadan qaçmağa meylli olur:** "Bu, tez-tez müşahidə olunan haldır. "Qafqaz əsiri" filmində belə səhnələr var. Ötən gün qaçan xəstələrə gəlincə, onlardan biri artıq evə yazılmışdı, digərinin isə müalicəsi davam edirdi. Onlar birləşib, qaçıblar və necə olubsa gedib aeroporta çıxıblar. Polis oradan zəng elədi və gətirib yenidən xəstəxanaya yerləşdirdilər. Mən hesab edirəm ki, bunun səbəbi xəstəxanada həddindən artıq sıxlığın olmasıdır. Ölkədə 4 psixiatriya xəstəxanası təmirə bağlanıb və orada müalicə alan xəstələrin əksəriyyətini buraya köçürüblər. Bizim dispanser 1890 çarpayılıqdır, ancaq indi burada 2002 xəstə müalicə alır. Hazırda ikimərtəbəli bir korpus tikilir, 100 çarpayılıq yer olacaq. Xəstələr də öz aralarında razılaşırlar ki, biri tibb bacısının başını qatır, digəri mühafizəçinin və su gətirmək, zibil atmaq adı ilə aradan çıxıb qaçırlar. Ancaq polisin və valideynlərin sayəsində xəstələr tez zamanda tapılır və geri qaytarılır. Əvvəllər şərait yaxşı deyildi, valideynlər qorxurdu qaçan xəstəni yenidən gətirib buraya qoymağa, ancaq indi evdəkindən də yaxşı şəraitimiz var, xəstələrin qidalanması, sağlamlığı nəzarət altındadır. Qış üçün istixanamız var, otaqlarda normal temperatur olur, camaşırxanada xəstələrin geyimləri yuyulub, ütülənir".

****

**Xəstəxananın giriş-çıxışlarında mühafizə xidmətinə gəlincə, baş həkim deyir ki, bura polis tərəfindən mühafizə olunur:** "İki nəfər polis gün ərzində ərazini gəzir. Ekspertiza şöbəsində 8 polis var, məcburi müalicə alanların korpusunu 9 nəfər polis qoruyur. Əvvəllər mühafizə işində çoxlu problemlər var idi, hasarlar uçuq idi, kənar şəxslər gəlirdi, kimsə çıxıb qaçırdı. İndi bu problemlər aradan qaldırılıb. Ancaq bizdə son illərdə xəstələrin 99 faizi ümumiyyətlə qaçmaq fikrində olmurlar. Məcburi müalicədə olan xəstələr də var ki, məhkəmə qərarı ilə burada müalicə olunurlar, onlar hər zaman qaçmağa cəhd göstərirlər. Əksər xəstələr isə deyirlər ki, bizi buradan qovsalar da getmərik. Çünki gözəl şəraiti var, yemək, yatmaq, yuyunmaq üçün hər cür rahatlıqları təmin olunub".

**Xəstəxanadan qaçan xəstələrin kiməsə xəsarət yetirməsinə, cinayət törətməsi ehtimalına münasibət bildirən A. Rəsulov bildirdi ki, cinayət məsələsində normal insanlar ruhi xəstələrdən daha təhlükəlidir:** "Bizə nöqsan tuturlar ki, xəstəxanadan qaçan şəxslər təkrar cinayət törədə bilərlər. Mən bu səbəbdən cinayət törətmiş ruhi xəstələrlə bağlı statistikanı topladım və məlum oldu ki, təkrar cinayət törədən xəstələr heç 1% deyil. Ancaq normal insanlar arasında cinayət törədənlər 28-29% təşkil edir. İndi cəmiyyəti kimdən qoruyaq, ruhi xəstələrdən, yoxsa normal adamlardan? Bütün xalqlarda bu "dəli" sözü var və həmin adamlara bu sözlə damğa vururlar ki, bu dəlidir, xəstəxanadan qaçıb, təhlükəlidir. Normal insanların sizə xəsarət yetirmək ehtimalı 28 dəfə çoxdur. Bu xəstələrin 35-40 faizi sağalıb yenidən cəmiyyətə qayıdır və normal həyatını yaşamağa davam edir. Pikasso, Salvador Dali, Dostoyevski, Tolstoy - bizim dilimizlə desək, bunlar hamısı ruhi xəstə olublar, ancaq nə cür əsərlər yaradıblar. Bu xəstəliyin konkret səbəbləri yoxdur. Hər şeydən ola bilər - kimi deyir irsidir, kimi deyir stressdən oldu, kimi deyir narkotik maddə qəbulundan oldu - müxtəlif səbəblər var. Bunlar, sadəcə fərziyyədir".

***

**Əsəb xəstəliklərinin kişilərdə, yoxsa qadınlarda daha çox müşahidə olunmasına gəlincə, baş həkim xəstəliyin hər iki cinsdə eyni dərəcədə müşahidə olunduğunu söyləyir:** "Bir dəfə qəzetlərdən birinə müsahibəmdə demişdim ki, burada müalicə alanların 70 faizi kişi, 30 faizi qadındır, jurnalist gedib mənim adımdan yazmışdı ki, Azərbaycanda qadınlar kişiləri dəli edib. Bu düzgün deyil. Sadəcə olaraq, qadın fiziki cəhətdən zəifdir, onu evdə saxlamaq olur, kişini nəzarətdə saxlamaq isə çətindir. Bu xəstəliyi hər yaşda müşahidə etmək olar. Anadangəlmə əqli gerilikləri olan uşaqlarda 3-4 yaşlarından təyin etmək olur. Şizofreniya dediyimiz xəstəlik isə əsasən gənclərdə, 21-29 yaşlarında baş qaldırır. Orta yaş xəstəlikləri də var, yaşlı xəstələrdə müxtəlif növ psixozlar müşahidə olunur".

**Baş həkim ruhi xəstələrin cəmiyyətə adaptasiyasını çox önəmli sayır:** "Bu məsələdə çox həssas olmaq vacibdir. Burada müalicə alan insanların iştirakı ilə biz vaxtaşırı konsertlər veririk, onların əl işlərindən ibarət sərgilər təşkil edirik. Bizim xəstələrin əl işi olan teatr kostyumları, müxtəlif metallardan işlənmiş suvenirlər, rəsm əsərləri sərgilərdə nümayiş olunur. Çalışırıq ki, onları cəmiyyətə yararlı olan əməyə cəlb edək ki, normal həyata qayıdanda hər hansı işlə məşğul ola bilsin. Xəstələri təsərrüfat işlərinə cəlb edirik ki, onlarda itirilmiş vərdişlər geri qayıtsın".

**Onun sözlərinə görə, bu xəstəlik insanların təsəvvüründə olduğu qədər qorxulu deyil, sadə bir müalicə formulu var:** "Müalicə çox asandır, vaxtında dərmanını verməklə xəstəni normal həyata qaytarmaq olar. Bu dərmanlar da bütün apteklərdə var, xəstəxanalarda dövlət tərəfindən pulsuz verilir. Xəstəlik sosial durumuna görə, hər təbəqədən olan insanlarda müşahidə oluna bilər. Sadəcə, imkanı yaxşı olanlar xəstələrini burada yox, xaricdə müalicə etdirirlər. Ancaq buraya Avropa ölkələrindən, ABŞ-dan gələn həmkarlarımız olub ki, deyiblər Avropa xəstəxanaları ilə bu xəstəxananın arasında heç bir fərq yoxdur".

****

**Adıçəkilən xəstəxananın tarixçəsinə gəlincə, müsahibimiz deyir ki, Azərbaycanda ilk dəfə ruhi xəstələr üçün müalicə evi 1936-cı ildə burada, şəhərin kənarında yaradılıb:** "Daha sonra 1975-76-cı illərdə burda 9 korpus tikilmişdi. O vaxtdan heç bir tikinti aparılmamışdı. Son illərdə isə hər biri 100 çarpayılıq olan 4 yeni korpus inşa edilib. Köhnələr uçurulub, 1936-cı ildə tikilən ilk korpusu isə bərpa edib muzey kimi saxlamaq istəyirəm. Ötən il xəstəxanaya 8867 xəstə daxil olub və bir o qədər də xəstə sağalaraq evə buraxılıb. Bu xəstələrinin sayının artması demək deyil, xəstələrin xəstəxanaya müraciətlərinin çoxalmasıdır. Buradakı şəraitin, xidmətin yaxşı olması insanları cəlb edir ki, xəstələrini buraya gətirsinlər. Burada xəstələrin alçaldılmasından, döyülməsindən söhbət gedə bilməz. Biz xüsusi qutular qoymuşuq ki, xəstələrin nə şikayəti olsa yazıb qutulara atır və o məktublar vaxtaşırı yoxlanır, narazılıqlar həll olunur.

Xəstələrə şərait yaratmışıq ki, istədikləri zaman film izləsinlər, musiqi dinləsinlər, xəstəxananın həyətindəki yaşıllıqda, gölün kənarında dincəlsinlər. Hətta gölün kənarında samovar qaynadıb, çay içmək üçün də şərait yaratmışıq. Çünki bu xəstələr həyatda qazandıqları vərdişləri, adicə gülümsəmək qaydasını itirirlər. Xəstəlik ilk növbədə insanın emosional sferasına təsir edir, onun emosional vərdişlərini öldürür. Biz o insanların simasına yenidən gülüş qaytarırıq".

**Son illər ruhi xəstəliklərlə bağlı müraciətlərin artmasının səbəbini izah edən baş həkimin fikrincə, həyat tempinin kəskin şəkildə artması insanlardan daha böyük psixoloji dözümlülük tələb edir:** "İndi bu xəstələrin sayının daha da artmasının səbəbi odur ki, həyatın tempi artıb, insanlar daha sürətli çalışmağa məcburdurlar. Həddindən artıq informasiya çoxluğu var və beyinə informasiya təzyiqi artıb, əksəriyyəti də neqativ informasiyalardır, bəd xəbərlərdir. Həddindən artıq demoqrafik sıxlıq var. Sosial problemlər, nəqliyyatda sıxlıq, iş yerində problemlər və sair hər biri insanın psixoloji durumuna təsir edir. Bundan çıxış yolu odur ki, insanlar gündəlik rejimə əməl etsinlər, rejimlə iş görsünlər, insan özünü konkret rejimə öyrədərsə bədən özünü daha yaxşı qoruya bilir".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**













YENİ MÜSAVAT

Son səhifə

N 229 (5938) 13 sentyabr 2014

# Ən kasıb ölkələr



Serbiya Avropanın ən kasıb ölkəsidir. Bu barədə Serbiya Statistika İnstitutu məlumat yayıb. Məlumata əsasən, ölkədə 1,8 milyon adam yoxsulluq səviyyəsində yaşayır. Bu da ölkə əhalisinin təqribən 24,6 faizini təşkil edir. Serbiyadan sonra siyahıda 23,1 faizlə Yunanıstan dayanır. Rumıniya 22,6 faizlə üçüncü, İspaniya 21,2 faizlə dördüncü, Bolqarıstan isə 21,2 faizlə beşinci yerdədir.



## Bu ölkənin 41 faizi siqaret çəkir

Cənubi Koreya hökuməti siqaret çəkənlərin sayını azaltmaq üçün qiymətləri az qala ikiqat artırmağı təklif edib. Hökumətin planında bildirilir ki, gələn ilin əvvəlində bir qutunun qiyməti təxminən 4500 won olacaq (3.40 AZN). Hazırda siqaretlərin qiyməti 2500 won-dur. Amma təklif parlamentdə dəyişikliklərə məruz qala bilər, çünki çoxu onun əleyhinədir, Yonhap xəbər agentliyi məlumat verir. Hökumət siqaret çəkən kişilərin sayını azaltmaq istəyir. Cənubi Koreyada kişilərin 41 faizi siqaret çəkir, dünyada isə orta rəqəm 26 faizdir, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) deyir. Bu ölkədə siqaret çəkənlərin ümumi sayı 23 faizdir, OECD-yə əsasən dünyada orta rəqəm isə 21 faizdir. Cənubi Koreya son dəfə siqaretlərin qiymətini 2004-cü ildə qaldırmışdı. Qiymətlərin 500 won qalxması nəticəsində siqaret çəkənlərin sayı 15 faiz azaldı, Yonhap məlumat verir.



## 50 milyonluq jest

Bill və Melinda Qeyts ebola xəstəliyi ilə mübarizə aparmaq üçün 50 milyon dollar bağışlayacaq. Onlar əvvəlcə də bu məqsədlə 10 milyon dollar xərcləmişdi. Cəmiyyətin İdarə Heyətinin sədri olan Kris Elias ötən 7-10 gün ərzində xəstəliyin sürətlə yayıldığını gördüyü üçün belə bir addım atıldığını deyib.

## Cəsarəti olanlar üçün uçurum ev

Avstraliyada məşhur bir memarlıq firması uçurumun kənarında, əvəzsiz okean mənzərəsi olan ev inşa edib. Uçurumun kənarına dəmirlərlə bağlanan ev görənləri heyrətə salır. Altı tamamən boşluqdan olan, dəmirlərlə asılı vəziyyətdə saxlanılan qeyri-adi evin 3 yataq otağı var. Bu evin hazırlanması üçün təklif yeni evlənmiş bir cütlük tərəfindən verilib. Onlar torpaq almaq və vergi vermək problemi olmadan bir evi necə tikəcəkləri haqda firma rəhbərindən məsləhət almağa gəliblər. Bundan sonra belə bir evin hazırlanması üçün təklif ortaya atılıb.

Qeyri-adi dizaynı olan uçurum ev dəmirlərlə asıldığı üçün beş hissədən ibarətdir. Evin geniş ərazisi olmasa da, avtomobil dayanacağı, əyləncə salonu, açıq havada üzmək üçün hovuzu var. Cəsarəti olan insanların yaşaya biləcəyi bir yer kimi hazırlanan ev haqqında memarlıq firmaları müxtəlif təkliflər irəli sürürlər.





## Qobi səhrasında hotel

Çində Qobi səhrasının bir hissəsini "canlandırmaq" məqsədi ilə "Lotus" (Lotos) adlı hotel tikmək niyyətindədirlər. Layihə üzərində "PLaT Architects" şirkətinin mütəxəssisləri işləyiblər. Hotel Pekindən 800 kilometr qərbdə Baotou və Ordos şəhərləri arasındakı səhralıqda inşa olunacaq. Memarlar bu mürəkkəb problemin həlli yolunu dəmir panellərin köməyi ilə tikilini qumda bərkitməkdə görüblər. Hotel sakinlərinə səhra mühitini hiss etdirmək üçün yerli materiallardan istifadə olunacaq. Hotel tikildikdən sonra regionda daha bir neçə memarlıq layihəsinin həyata keçirilməsi planlaşdırılır.

## Qoroskop




QOÇ - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

BUĞA - İnsanların bir-birinə soyuqlaşdığı indiki ərəfədə dini-mistik dəyərlərə qiymət verməlisiniz. Bu baxımdan Tanrıya zidd olan addımlar atmayın. Gün ərzində səhhətinizi qoruyun.

ƏKİZLƏR - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Başqalarının qəlbinə dəyən hərəkətlərə yol verməyin.

XƏRÇƏNG - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

ŞİR - Bu təqvimdə ən müxtəlif situasiyalarla rastlaşa bilərsiniz. Daha həssas olduğunuz üçün emosiyalarınızı cilovlayın. Mübahisə etməyin. Başınızı yalnız adi işlərlə qatın.

QIZ - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün yaşlı qohumları ziyarət etmək sizə rahatlıq gətirəcək.

TƏRƏZİ - Bu gün enerjiniz qədərindən az olduğu üçün nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlərdə ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

ƏQRƏB - Ulduzların düzümü yeniliklərlə zəngin olan bu gündə riskdən uzaq olmağı tövsiyə edir. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

OXATAN - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

OĞLAQ - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Ölçülü-biçili danışın.

SUTÖKƏN - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta günahkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Bəxtinizdə pul da var.

BALIQLAR - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!

## Ozon deşiyi bağlanır



Dünya Meteorologiya Təşkilatı günəşin zərərli şüalarından yer üzünü qoruyan atmosferdəki ozon təbəqəsinin son illərdə artdığını və ozon deşiyinin yavaş-yavaş bağlandığını açıqlayıb. Təşkilatın araşdırmaçılarından biri olan Geir Brathen ozon təbəqəsində artma müşahidə edildiyini deyib. Əgər belə davam edərsə, ozon deşiyi bağlana bilər. Yerdən 40 kilometr yüksəyə çıxıldığı zaman ozon təbəqəsinin artdığını açıq-aşkar hiss etmək olar. Bu da 2050-ci ilə ildə ozon deşiyinin bağlanacağından xəbər verir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600